

## Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...

Ümummilli Lider HEYDƏR ƏLİYEV

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti

30 iyul 2021-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

**Yurdsevər Xalq, Qalib Ordu, Müzəffər Ali Baş Komandan**
→Səh.2

**Müasir tariximizin 52 illik bir mərhələsi Heydər Əliyevin adı ilə bağlıdır**
→Səh.4

**BDU Qarabağ Dirçəliş Fondu ilə əməkdaşlığa başlayır**
→Səh.5

**BDU-da Milli Mətbuat Gününə həsr olunmuş dəyirmi masa keçirilib**
→Səh.6

**BDU-nun əlaçı məzunu: Burada oxumaq hər zaman mənim üçün qürurdur**
→Səh.10

**BDU tələbələri "PAŞA Bank"ın kodlaşdırma üzrə təlim sessiyalarında iştirak edəcəklər**
→Səh.10

**Tələbə Nəzarət Qrupunun üzvləri imtahan sessiyasından danışır**
→Səh.15

**BDU-nun müəllimləri 2020/2021-ci tədris ilinin yekunları haqqında**
→Səh.16




**BDU və KOBİA arasında Anlaşma Memorandumu imzalandı**
→Səh.5



**QS beynəlxalq təşkilatının regional direktoru BDU-da olub**
→Səh.5



**BDU-nun rektoru gənc istedadlarla görüşüb**
→Səh.6




**BDU şəhid və qazi tələbə və məzunları ilə bağlı kompleks tədbirlər həyata keçirir**
→Səh.8



**BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin uğurları**
→Səh.9



## BDU-da Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsinin 52-ci ildönümünə həsr olunmuş dəyirmi masa keçirilib

***İyulun 14-də Bakı Dövlət Universitetində Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsinin 52-ci ildönümünə həsr olunmuş onlayn dəyirmi masa keçirilib.***

Dəyirmi masada giriş nitqi ilə çıxış edən BDU-nun rektoru Elçin Babayev Heydər Əliyevin 1969-cu il iyulun 14-də ölkəmizdə siyasi hakimiyyətə gəlməsini mühüm tarixi hadisə olduğunu bildirərək qeyd edib ki, ömrünü dövlətinin, xalqının inkişafına, çiçəklənməsinə və rifahına həsr edən Ulu Öndərin adı Azərbaycanın tarixinə qızıl hərflərlə yazılıb. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin çoxşaxəli fəaliyyətindən, Azərbaycanın inkişafı, müstəqilliyimizin qorunması və milli dövlətçiliyimizin gücləndirilməsi istiqamətində misilsiz tarixi xidmətlərindən, böyük xilaskarlıq missiyasından danışıb. Rektor Elçin Babayev Ulu Öndərin milli inkişafın yeganə yolunu xalqın yüksək təhsil almasında, maariflənməsində gördüyünü, respublikada elmin inkişafı üçün bütün zəruri tədbirləri həyata keçirdiyini vurğulayıb. Bildirib ki, Heydər Əliyev şəxsiyyətinin böyüklüyü məhz onda idi ki, o, bütün fəaliyyəti boyu bu sahələrə diqqət və qayğısını əsirgəməmiş, cəmiyyətdə yüksək bilikli, intellektual təbəqənin formalaşmasına çalışmışdır. Dahi və uzaqgörən şəxsiyyətin həmin dövrdə həyata keçirdiyi ən mühüm tədbirlərdən biri də respublikada milli hərbçi kadrların yetişdirilməsi istiqamətində qəbul etdiyi tarixi qərarlar və bunun nəticəsi olaraq Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin yaradılması idi.

Elçin Babayev Vətən Müharibəsində şanlı qələbəmizin əsasını təşkil edən xalq-iqtidar birliyinin təməlinin məhz Ulu Öndərin hakimiyyəti illərində qoyulduğunu da vurğulayıb.

Milli Məclisin üzvü, BDU-nun kafedra müdiri Kamilə Əliyeva çıxışında Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin inkişafı, ölkə iqtisadiyyatının dirçəldilməsi, respublikanın inkişafına hesablanmış neçə-neçə layihənin həyata keçirilməsi uğrunda misilsiz xidmətlərindən söhbət açıb.

Daha sonra BDU-nun Tarix fakültəsinin professoru İbrahim Zeynalov "Müstəqilliyə gedən yol 1969-cu ilin iyulun 14-də Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsindən başlayır", BDU-nun kafedra müdiri, professor İradə Hüseynova "Heydər Əliyev və Azərbaycan dövlətçiliyi", Tarix fakültəsinin dekan müavini Bəxtiyar Nəbiyev "1969-1982-ci illərdə Azərbaycanın kənd təssərrüfatının inkişafında yeni mərhələ", Tarix fakültəsinin magistrantı Ləman Əsədzadə "Milli oyanış: Ulu Öndərin rəhbərliyi dövründə Azərbaycan SSRİ-də milli mənəvi dəyərlərin təbliği" mövzusunda məruzə ilə çıxış ediblər.







*BDU-da Zəfər ovqatlı Məzun günü - Reportaj*

# Yurdsevər Xalq, Qalib Ordu,

***Ölkəmizdə bütün sahələrin inkişafı kimi peşəkar şəkildə ordu quruculuğuna da yalnız ulu öndərimiz Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra başlanıldı. 1993-cü ildə müdrik xalqımızın çağırışına səs verərək yenidən siyasi hakimiyyətə qayıdan ümummilli liderin ardıcıl səyləri, bilik və bacarığı nəticəsində ayrı-ayrı siyasi qüvvələrə tabe olan silahlı dəstələr vahid komandanlıq altında birləşdirildi, sözün əsl mənasında, Azərbaycan Milli Ordusunun yaradılmasına və formalaşdırılması prosesinə başlanıldı.***

***Yurdsevər Azərbaycan xalqı tarixən milli ruhu, Vətən torpaqları uğrunda döyüşkənliyi, cəsurluğu ilə ad qazanmış bir çox sərkərdələr yetirib. Babək, Cavanşir Mehrani, Pənahəli xan Cavanşir, Cavad xan, Əliağa Şıxlinski, Səməd bəy Mehmandarov, Cəmşid Naxçıvanski, Hüseyn xan Naxçıvanski, Həzi Aslanov kimi sərkərdələrimizin adları dünya hərb tarixinə parlaq hərflərlə həkk olunub.***

Hərb tarixində örnəklər yaratmış soydaşlarımızı tarixi ənənələrdən, döyüşkənlik ruhundan, milli-mənəvi köklərimizdən ayrı salmaq üçün azərbaycanlılar çar Rusiyası dövründə məqsədli şəkildə ordu sıralarına çağırılmırdı. Hərbi təhsil almış az sayda soydaşlarımız isə imperiya ordusunda yüksək keyfiyyətləri ilə seçilmişdilər. Yalnız 1918-ci ilin mayında müsəlman şərqində ilk demokratik respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə xalqımızın bir çox arzuları gerçəkləşməyə başladı, eyni zamanda, çarizmdən qalan bu bədnam plan da ortadan qaldırıldı. Ölkəmizdə milli ordu quruculuğu işi dövlət səviyyəsində həyata keçirilən bir proses oldu.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 26 iyun 1918-ci il tarixli qərarı ilə ölkəmizdə ilk Əlahiddə Azərbaycan Korpusu yaradıldı. Bununla Azərbaycan Silahlı Qüvvələrinin təməli qoyuldu. Həmin ilin avqust ayının 1-də Hərbi Nazirlik təsis olundu. General Səməd bəy Mehmandarov hərbi nazir, general-leytenant Əliağa Şıxlinski nazir müavini təyin edildilər. Beləliklə də uzun müddət hərb sənətindən, ordu quruculuğundan məqsədli şəkildə uzaq salınmış xalqımız tarixi ənənələri bərpa etdi, sıralarında millətimizin ən cəsur oğullarının cəmləşdiyi milli ordumuz yaradıldı. Azərbaycan Silahlı Qüvvələri ən qısa müddət ərzində toparlanmağı, eyni zamanda, formalaşmağı bacardı.

Milli ordumuz xüsusilə sərhədlərimizdə öz əzmini və iradəsini nümayiş etdirdi. Silahlı Qüvvələrimiz Nuru Paşanın komandanlıq etdiyi Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından xilas etdi, həmçinin Qarabağda baş qaldıran erməni separatçılarına layiqli cavab verərək onları ərazilərimizdən çıxardı. Silahlı Qüvvələrimizin Həbib bəy Səlimov, Hüseyn xan Naxçıvanski, İbrahim ağa Usubov, Kazım Qacar, Həmid Qaytabaşı, Cavad bəy Şıxlinski kimi generalları, qəhrəman zabit və əsgərlərimiz, sözün əsl mənasında, tarix yazdılar. Cəmi 23 ay yaşayan Xalq Cümhuriyyəti bolşeviklər tərəfindən devrildikdən sonra çarizmin məkrli siyasəti bütün istiqamətlərdə amansızcasına davam etdirildi. Bu çirkin siyasətin məntiqi nəticəsi olaraq Azərbaycan Milli Ordusu ləğv edildi.




Sovet dövründə azərbaycanlıların hərbi xidmətə cəlb edilməsinə başlanılsa da, burada da çarizmdən qalan mənfur niyyət, məkrli plan özünü biruzə verirdi. Əgər çarizm dövündə azərbaycanlılar hərb sənətindən uzaq salınmaq məqsədilə, ümumiyyətlə, hərbi xidmətə aparılmırdısa, sovet hakimiyyəti dövründə soydaşlarımızı əsasən təmir-tikinti taborlarında xidmətə cəlb edirdilər. Burada başlıca məqsəd döyüş ruhlu xalqımızı hərbi-döyüş ənənələrindən uzaq salmaq, onun mübarizə əzmini sındırmaq idi. Bu şovinist siyasət, demək olar ki, 1920-ci ildən 1970-ci illərə qədər məqsədyönlü şəkildə davam etdirildi.

1971-ci il iyun ayının 20-də hakimiyyətə gəlişinin cəmi ikinci ilinin tamamında ulu öndər Heydər Əliyev böyük çətinliklər hesabına Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəbin açılmasına nail oldu. Bu, həmin dövrdə inqilab sayıla biləcək bir hadisə idi. İlk dəfə idi ki, azərbaycanlılar öz vətənlərində hərb sənətinin sirlərini öyrənməyə, hərbçi peşəsinə yiyələnməyə cəlb olunurdular. Bu tarixi hadisə həmin dövrdə əhali arasında böyük ruh yüksəkliyi yaratdı, illərlə yaşanan məhrumiyyətlərə, tətbiq edilən qadağalara müəyyən qədər son qoydu. Azərbaycanlı ailələr həmin illərdə həvəslə öz övladlarını hərbi təhsil almağa, zabit kimi yetişməyə göndərdilər. Bu addım həm də tarixi ənənələrin bərpası, milli ruhumuzun və sabaha olan ümidlərimizin ilkin qayıdışı idi.

Ümummilli lider Heydər Əliyev müstəqillik illərində Cəmşid Naxçıvanski adına hərbi məktəbin açılmasını xatırlayaraq deyirdi: "Mən belə bir addım atarkən, təşəbbüs irəli sürərkən, o vaxt Sovetlər İttifaqının çərçivəsində belə bir qeyri-adi qərar qəbul edərkən təkcə o günləri yox, Azərbaycanın gələcəyini düşünürdüm. Mən çox istəyirdim ki, Azərbaycanın milli ordusu olsun. Əgər o vaxt milli ordu yaratmaq mümkün deyildisə, Sovetlər İttifaqı ordusunun tərkibində Azərbaycanın güclü zabit korpusu, zabitləri olsun. Mən istəyirdim ki, Azərbaycan zabitləri Sovetlər İttifaqı ordusunun tərkibində özlərinə layiq yer tutsunlar, respublikamızın mövqeyini müdafiə etsinlər və Azərbaycanın təsirini bütün Sovetlər İttifaqına yaya bilsinlər. Mən istəyirdim ki, zabitlər korpusumuz olsun, çünki bu, Azərbaycanın gələcəyi üçün lazım idi. O vaxt bunu dərk edə bilməyən adamlar da, buna adicə bir hadisə, tədbir kimi baxanlar da indi yəqin artıq bilirlər ki, bu addımı atarkən nə qədər böyük uzaqgörənlik olmuşdur. Deməliyəm ki, o vaxt biz məktəbi yaradanda onun əleyhinə Moskvadan, Sovetlər İttifaqının mərkəzindən çox etirazlar edirdilər. Buraya bir neçə dəfə komissiyalar göndərdilər, yoxladılar, bunun qeyri-qanuni olması barədə qərarlar çıxardılar. Təkliflər verdilər ki, mənim bu qərarım Sovetlər İttifaqında mövcud olan qərarlara zidddir, uyğun deyil, onu ləğv etmək lazımdır. O vaxt mənə deyirdilər ki, Suvorov adına, Naximov adına məktəblər var, əgər siz gənclərinizi, uşaqlarınızı, hərbi təhsilə cəlb etmək istəyirsinizsə, bu məktəblərdən istifadə etmək olar, belə bir ixtisaslaşdırılmış hərbi məktəbin yaranması isə lazım deyil. Ancaq mən öz fikrimdən dönmədim".

Tarix sonralar dəfələrlə sübut etdi ki, Azərbaycanın yurdsevər, təşəbbüskar rəhbəri Heydər Əliyevin bu qərarı müdrik, uzaqgörən, eyni zamanda, cəsarətli qərar olmuşdur. Məhz bu tarixi qərarın sayəsində əsryarımlıq bir müddətdə ordu quruculuğundan, döyüş sənətinin sirlərinə yiyələnməkdən məqsədli və məkrli şəkildə uzaq salınan xalqımızın övladları hərbi işini öyrənməyə başladılar. Çarizm zamanında azərbaycanlıların hərbi xidmətə aparılmadığını, sovet dövründə isə əsasən tikinti taborlarında xidmətə cəlb olunduğunu göz önünə gətirəndə Azərbaycanda Cəmşid Naxçıvanski adına hərbi məktəbin hansı çətinliklərdən keçərək yaradıldığını, həmçinin bu müdrik qərarın tarixi əhəmiyyətini daha aydın təsəvvür etmək olur.

Eyni zamanda, bu müdrik, dahiyanə və cəsarətli qərarı qəbul edən, onu inadla gerçəkləşdirən ümummilli lider Heydər Əliyevin fəhminə, dünyagörüşünə, uzaqgörənliyinə heyran olmamaq mümkün olmur. Məhz həmin hərbi məktəbdə yetişmiş, formalaşmış zabitlər 20 ildən sonra müstəqil Azərbaycan ordusunun qurucuları oldular. Həmin nəsil professional hərbçilər Birinci Qarabağ müharibəsində və möhtəşəm qələbə ilə başa çatan Vətən müharibəsində öz peşəkarlıqlarını, vətənpərvərliklərini nümayiş etdirdilər, şəhidlik, qazilik zirvəsinə ucaldılar.

Azərbaycan dövlət müstəqilliyini ikinci dəfə əldə etdikdən sonra milli ordunun yaradılması prioritet vəzifə kimi qarşıda dururdu. Bu məqsədlə 1991-ci ilin 5 sentyabrında Müdafiə Nazirliyi yaradıldı, 9 oktyabr 1991-ci il tarixində isə respublika parlamenti silahlı qüvvələrin yaradılması haqqında qanun qəbul etdi. Lakin təəssüf hissi ilə qeyd etməliyik ki, həmin dövrdə ordu quruculuğu yalnız kağız üzərində idi, bu sahədə peşəkarlıqdan söhbət gedə bilməzdi. Yeni yaradılan silahlı birləşmələr məqsədli şəkildə vahid komandanlıq altında cəmləşdirilmir, əksinə, ayrı-ayrı silahlı dəstələr şəklində fəaliyyət göstərir və ən təhlükəlisi isə, xarici ölkələrin güc mərkəzləri tərəfindən idarə olunan siyasi qüvvələrin əlində alətə çevrilirdilər. Bundan məharətlə istifadə edən mənfur qonşu Ermənistan isə Qarabağı və ətraf rayonlarımızı işğal edir, soydaşlarımızı tarixi torpaqlarımızdan qovub didərgin salırdılar.

Ölkəmizdə bütün sahələrin inkişafı kimi peşəkar şəkildə ordu quruculuğuna da yalnız ulu öndərimiz Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra başlanıldı. 1993-cü ildə müdrik xalqımızın çağırışına səs verərək yenidən siyasi hakimiyyətə qayıdan ümummilli liderin ardıcıl səyləri, bilik və bacarığı nəticəsində ayrı-ayrı siyasi qüvvələrə tabe olan silahlı dəstələr vahid komandanlıq altında birləşdirildi, sözün əsl mənasında, Azərbaycan Milli Ordusunun yaradılmasına və formalaşdırılması prosesinə başlanıldı.

Görülən tədbirlər qısa müddət ərzində bəhrəsini verdi, Milli Ordumuz Füzuli və Ağdam cəbhəsində ilk uğurlarını, ilk qələbələrini qazandı, ordumuzun qarşısında tab gətirə bilməyən azğın düşmən geri çəkilməyə məcbur edildi. Azərbaycan ordusunun gücünü, məharətini, vahid komandanlıq tərəfindən peşəkarlıqla idarə olunmasını görən düşmənin 1994-cü ilin mayında atəşkəs sazişini imzalamaqdan başqa çıxış yolu qalmadı. Atəşkəs dövründə ulu öndərimiz Heydər Əliyevin böyük səyləri nəticəsində ölkə həyatının bütün sahələrində əldə edilmiş nailiyyətlər özünü ən yüksək səviyyədə ordu quruculuğu sahəsində də biruzə verdi.

Ulu öndərin tarixi ənənələrə hörmət, varislik prinsiplərinə sədaqətlə yanaşaraq silahlı qüvvələr gününün tarixinin qeyd edilməsinə də yenidən baxdı və ən doğru, ədalətli qərarı qəbul etdi. Prezident, Ali Baş Komandan Heydər Əliyevin 22 may 1998-ci il tarixli fərmanı ilə Azərbaycanda Silahlı Qüvvələr Günü 1991-ci ildə Ali Sovet tərəfindən silahlı qüvvələrin yaradılması haqqında qanunun qəbul edildiyi 9 oktyabr deyil, məhz Xalq Cümhuriyyəti dövründə - 1918-ci ildə Əlahiddə Azərbaycan Korpusunun yarandığı 26 iyun təsdiq edildi, tarixi varislik prinsipi qorundu. 1998-ci ildən etibarən hər il 26 iyun Azərbaycanda Silahlı qüvvələr Günü kimi rəsmi dövlət bayramı səviyyəsində qeyd olunur.

Ümummilli lider Heydər Əliyevin müstəqillik dövründə respublikaya rəhbərliyi illərində ordu quruculuğu daim prioritet məsələ kimi diqqətdə saxlanıldı. Ölkəyə cəlb edilən investisiyalardan əldə edilən gəlirlər ordunun maddi-texniki təminatına, eyni zamanda, hərbçilərin sosial rifahının yaxşılaşdırılmasına yönəldildi. Hərbçilər, qazilər, şəhid ailələri dövlət tərəfindən yüksək maaş, təqaüd və mənzillərlə təmin olundular. Ordunun kadr potensialının müasir səviyyədə təmin edilməsi məqsədilə hərbi lisey və ali hərbi məktəblərin maddi-texniki bazası gücləndirildi. Bu şəbəkənin strukturu və idarə edilməsi təkmilləşdirildi. Eyni zamanda, milli odumuzda xidmət edən zabitlərin peşəkarlığının daha da artırılması, bu sahədə modern dünya təcrübəsinin yaxından mənimsənilməsi məqsədilə onların Türkiyə, Rusiya, Pakistan, İtaliya kimi ölkələrin ali hərbi məktəblərində təhsil almaları üçün hər cür şərait yaradıldı.

2003-cü ildən ölkəmizə uğurla rəhbərlik edən, ulu öndərimiz Heydər Əliyevin siyasi varisi, ən layiqli davamçısı İlham Əliyevin prezidentliyi dövründə ölkə həyatının bütün sahələrində sürətli inkişafa, davamlı tərəqqiyə nail olundu. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ardıcıl səyləri nəticəsində bu illər ərzində ölkəmizdə ordu quruculuğu özünün ən yüksək inkişaf səviyyəsinə çatdı. Ən başlıcası, Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi altında milli ruhlu, vətənpərvər gənc nəsil yetişdi. Ötən ilin payızında aparılan qalibiyyətli Vətən müharibəsində qazanılan Zəfərimizin ən parlaq səhifələrini məhz həmin gənclər döyüş xəttində, səngərlərdə yazdılar.

# Müzəffər Ali Baş Komandan



***Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi son 18 ildə Azərbaycan Ordusunun peşəkar şəkildə kadr təminatının həyata keçirilməsi məqsədilə Naxçıvanski adına Hərbi lisey, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Hərbi Dənizçilik Məktəbi, Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi kimi peşəkar qurumların fəaliyyəti daha da gücləndirildi.*** Bu hərbi təhsil müəssisələri ordumuzun zabit korpusunun formalaşmasına əvəzsiz töhfələr verdilər. Bundan əlavə, ordumuzun zabitləri üçün xarici ölkələrdə, xüsusilə də qardaş Türkiyədə hərbi təhsil almaq üçün hər cür şərait yaradıldı. 1994-cü ildən NATO-nun "Sülh Naminə Tərəfdaşlıq Proqramı"na qoşulan Azərbaycan Silahlı Qüvvələrinin əsgər və zabitləri artıq öz sərhədlərimizi qorumaqla yanaşı, sülhməramlı qüvvələr kimi dünyanın müxtəlif münaqişə zonalarında da fəaliyyət göstərir, xalqımızı, milli ordumuzu ləyaqətlə təmsil edirlər.

Cənab İlham Əliyevin prezidentliyi dövründə Azərbaycanın müdafiə xərcləri dəfələrlə artırıldı, ölkəmizin hərbi büdcəsi Ermənistanın ümumi dövlət büdcəsini üstələdi. Bu dövrdə əldə edilmiş ən böyük nailiyyətlərdən biri də Müzəffər Azərbaycan Ordusunun silah və hərbi texnika təminatı baxımından heç bir dövlətdən asılı olmamasının təmin edilməsidir. Bu məqsədlə möhtərəm Prezidentimiz İlham Əliyevin müdrik və uzaqgörən qərarı ilə 2005-ci ildə ölkəmizdə Müdafiə Sənayesi Nazirliyi yaradıldı. Ölkə rəhbərliyinin müəyyənləşdirdiyi strategiya, həyata keçirdiyi mühüm tədbirlər nəticəsində qısa müddət ərzində Azərbaycan silah və hərbi texnika istehsal edən ölkəyə çevrildi. Artıq dünya silah sənayesi Azərbaycan istehsalı olan 400 addan çox müdafiə təyinatlı məhsulu tanıyır və qəbul edir. Təsadüfi deyil ki, parlaq qələbə ilə başa çatan Vətən müharibəsində Azərbaycan öz istehsalı olan hərbi avadanlıqlardan düşmənə qarşı məharətlə istifadə etdi. Mənfur düşmən Azərbaycan zabitinin və əsgərinin yenilməz gücü ilə yanaşı, Azərbaycan silah sənayesinin qüdrətini də yaxından hiss etdi.

Bütün bu kompleks tədbirlərin, düşünülmüş, gələcəyə hesablanmış addımların sayəsində cənab İlham Əliyevin prezidentliyi dövründə Azərbaycan Silahlı Qüvvələri dünyanın ən hazırlıqlı 50 ordusu siyahısına daxil oldu. Bununla ulu öndərin möhkəm təməllər üzərində formalaşdırdığı ordu quruculuğu özünün ən yüksək inkişaf həddinə çatdı, şanlı qələbəmiz üçün hərtərəfli zəmin yarandı.

Dünya hərb tarixinə qızıl hərflərlə yazılan 2016-cı ilin Aprel döyüşləri, Lələtəpə zəfəri, 2018-ci ilin may ayında Naxçıvanda aparılan Günnüt əməliyyatı, 2020-ci ilin iyulunda Tovuz döyüşləri Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi ordunun qarşısında heç bir gücün dayana bilməyəcəyini bütün dünyaya bəyan etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə silahlı qüvvələrimiz tərəfindən uğurla həyata keçirilən bu əməliyyatlar nəticəsində azad edilmiş və nəzarətə götürülmüş yüksəkliklər İkinci Qarabağ müharibəsində Azərbaycana böyük üstünlüklər və əlavə imkanlar yaratdı, parlaq qələbəmizə, şanlı zəfərimizə gedən müqəddəs yolun qığılcımları oldu.

2018-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının 100 illik yubileyi münasibətilə, eyni zamanda, 2018-ci il sentyabrın 15-də Bakı şəhərinin azad edilməsinin 100 illiyi münasibətilə keçirilən paradlar Azərbaycan Ordusunun gücünü, əzmini, döyüş ruhunu, hazırlıq səviyyəsini, eyni zamanda, maddi-texniki təminatını bütün dünyaya nümayiş etdirdi. Bütün bunlar – Aprel döyüşləri, Günnüt əməliyyatı, Tovuz döyüşləri, keçirilən hərbi paradlar artıq yaxınlaşmaqda olan tarixi qələbəmizin addım səsləri idi.

Nəhayət, o şanlı gün gəldi. 27 sentyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri düşmənin növbəti təxribatlarına Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin əmri ilə başlayan əks-hücum əməliyyatları ilə layiqli cavab verdi. 30 il davam edən işğala 44 gün ərzində son qoyuldu. Silahlı Qüvvələrimiz tarixi ədaləti bərpa etdi, ölkəmizin ərazi bütövlüyü təmin olundu, üçrəngli bayrağımız tarixi torpaqlarımızda əbədi ucaldıldı.

Cəsur xalqımız və qüdrətli dövlətimiz builki 26 iyun Silahlı Qüvvələr Gününü ötən illərdən fərqli şəkildə, Qələbə ovqatı, Zəfər ruhu ilə qeyd etdi. İlk dəfə idi ki, 26 iyun qalib, məğrur, müzəffər, ölkəmizin ərazi bütövlüyünü təmin etmiş, 30 illik Qarabağ müharibəsinə birdəfəlik son qoymuş Azərbaycan Ordusunun bayramı kimi keçirildi.

BMT-nin torpaqlarımızın işğaldan azad edilməsi ilə bağlı qərarları məhz silahlı qüvvələrimiz tərəfindən döyüş meydanlarında, səngərlərdə həyata keçirildi. Bu tarixin hər bir anı, hər bir səhifəsi bizim üçün müqəddəs və əzizdir. Tariximizə parlaq hərflərlə, qazilərimizin şücaəti, şəhidlərimizin qanı ilə yazılan 44 günlük Vətən müharibəsi nəticəsində doğma torpaqlarımız işğaldan azad edildi, tarixi ədalət bərpa olundu. İndi əldə edilmiş tarixi qələbəmizi göz bəbəyimiz kimi qoruyub saxlamaq hər birimizin müqəddəs borcu, başlıca amalı, həyatımızın əsas qayəsi, məramı və məqsədidir.

Qəhrəman Silahlı Qüvvələrimizin xalq–iqtidar birliyinə, qardaş və dost ölkələrin siyasi və mənəvi dəstəyinə, ən başlıcası isə Ali Baş Komandanımızın sərkərdəlik məharətinə söykənərək əldə etdiyi tarixi qələbə Azərbaycanın çoxəsrlik tarixində indiyə qədər olan heç bir əlamətdar hadisə, əldə edilmiş heç bir uğurla müqayisə oluna bilməz. Məhz bu tarixi qələbə sayəsində möhtərəm Prezidentimiz İlham Əliyev ulu öndərimiz Heydər Əliyevin müəyyənləşdiridiyi doktrina ilə Azərbaycan dövlətinin qüdrətini, əzmini bütün dünyaya nümayiş etdirdi, xalqımızın qürurunu, şərəfini zirvələrə ucaltdı. Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin başçılığı ilə qəhrəman Azərbaycan Ordusu XXI əsrin müharibəsini apardı. Artıq Azərbaycan Silahlı Qüvvələrinin apardığı yeni nəsil müharibəsinin metodları, döyüş üsulları dünyanın aparıcı ali və hərbi məktəblərində öyrənilir, dərsliklərə salınır, tədris olunur.

Bu möhtəşəm uğura imza atan Azərbaycan Silahlı Qüvvələri öz sıralarında qəhrəman generalları, digər yüksək rütbəli zabitləri, cəsur gizir və əsgərləri birləşdirir. Bu şanlı qələbə onların hər birinin fədakarlığı bahasına başa gəlib. 26 iyun tarixi məhz qəhrəman zabit və əsgərlərimizin əzmi, qeyrəti, cəsarəti hesabına bu il qələbə ovqatında, zəfər ruhunda qeyd edildi. Silahlı Qüvvələrimizin bütün şəxsi heyətini bir daha şanlı zəfər münasibətilə təbrik edir, onlara yeni qələbələr arzulayırıq. Bu tarixi qələbə qazilərimizin qanı, şəhidlərimzin canı hesabına əldə edilib. Qəhrəman qazilərimizə Allahdan şəfa, müqəddəs şəhidlərimizə isə rəhmət diləyirik. İlk dəfə idi ki, Silahlı Qüvvələr Günündə şəhidlərimizin ruhları şad oldu. Bu tarixi gündə onların uğrunda şəhid olduqları torpaqlarımızın hər bir qarışında üçrəngli Azərbaycan bayrağı dalğalanırdı. İlk dəfə idi ki, 26 iyun tarixi qələbə qazanmış Müzəffər Azərbaycan ordusunun, Bakının Azadlıq meydanında qürurlu və mətin addımlarla Zəfər Paradından keçmiş, Şuşaya sancılmış müqəddəs bayrağımızı hərbi paradda nümayiş etdirmiş Silahlı Qüvvələrimizin günü kimi qeyd edildi.

Xalqımız əmindir ki, bundan sonra Azərbaycanı yenilməz sərkərdəmiz İlham Əliyevin rəhbərliyi ilə daha böyük tarixi qələbələr, intibahlar gözləyir. Bu gün müqəddəs ata vəsiyyətini şərəflə yerinə yetirən Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Qarabağda möhtəşəm quruculuq işləri aparılır. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bu gün həm də quruculuq cəbhəsinin yenilməz baş sərkərdəsidir. Bu günlərdə müqəddəs şəhərimiz, mədəniyyət paytaxtımız Şuşada keçirilən "Xarıbülbül" musiqi festivalı Azərbaycan dövlətinin, diplomatiyamızın, ən başlıcası isə cənab İlham Əliyevin Ali Baş Komandanı olduğu Silahlı Qüvvələrimizin gücünü, qüdrətini, əzmini, döyüş ruhunu bir daha dünyaya nümayiş etdirdi.

15 iyun 2021-ci ildə – Milli Qurtuluş Günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanla Şuşaya səfəri, tarixi "Şuşa Bəyannaməsi"nin imzalanması isə Azərbaycan dövlətinin qüdrətinin, siyasi iradəsinin qarşısında bundan sonra heç bir qüvvənin dayana bilməyəcəyinin bəyanı idi. Özündə Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında dostluq, qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün parametrlərini əks etdirən tarixi "Şuşa Bəyannaməsi"ninin mətnində yer alan: "Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər. Bu yardımın həcmi və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaqdır"– hədəfi 103 yaşlı Azərbaycan Silahlı Qüvvələrinin gücünü, döyüş ruhunu, əzmini daha da artırır, Müzəffər Ordumuzun qarşısında heç bir qüvvənin dayana bilməyəcəyini uca səslə bəyan edir!

***Elçin Babayev,***
*Bakı Dövlət Universitetinin rektoru*

*"Xalq qəzeti",*
*1 iyul 2021-ci il*

# Müasir tariximizin 52 illik bir mərhələsi Heydər Əliyevin adı ilə bağlıdır

***Müasir tariximizin 52 illik bir mərhələsi, o cümlədən müstəqil Azərbaycan dövlətinin quruculuğu, dinamik inkişafı və inteqrasiya sisteminə qovuşması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Dünyanın ən tanınmış, ən güclü siyasi xadimləri, tələbkar ekspertləri bu qüdrətli Vətən oğlunu Azərbaycan tarixinin yetirdiyi ən mükəmməl, cəsarətli, möhkəm iradəli şəxsiyyət, beynəlxalq aləmdə tanınmış böyük siyasət və dövlət xadimi, fenomen düha və lider kimi qiymətləndirmişlər. Həmçinin Heydər Əliyevin böyük dövlət xadimi, təcrübəli və ustad siyasətçi, fenomenal hafizəyə və incə duyuma malik şəxsiyyət olması hətta opponentləri tərəfindən də etiraf edilən danılmaz həqiqətdir.***

Heydər Əliyevin 52 illik ictimai-siyasi və dövlətçilik fəaliyyəti, bütünlüklə isə ömür yolu dərin bir dünya görüşündən çox illik həyati təcrübədən xəbər verməsi ilə yanaşı, müasir Azərbaycan gerçəkliyi, xalqımızın mədəni-mənəvi və intellektual həyatını adekvat surətdə əks etdirməklə çağdaş Azərbaycan ictimai fikrində bir ölçü vahidi kimi qəbul edilir.

Ulu öndər Heydər Əliyev qeyd edirdi ki, "Azərbaycanın tarixi keçmişini, bugünkü reallıqlarını və gələcək perspektivlərini əks etdirməsi, ümumbəşəri və milli dəyərlərə söykənməsi konstitusiyamızı səciyyələndirən əsas cəhətlərdir".

Azərbaycan 30 ildir ki, müstəqil dövlət kimi daim inkişaf edir, güclənir, nəhayət, qalib qüdrətli dövlətdir. Azərbaycanın dövlət müstəqilliyi tarixi hadisədir. Azərbaycan xalqının tarixi nailiyyətidir.

Azərbaycanı tarixi müstəqilliyə, iqtisadi - sosial tərəqqiyə, tarixi hərbi qələbəyə aparan böyük siyasət 1969-cu ilin 14 iyulundan başlayır. Azərbaycan tarixinin 1969-cu ildən başlayan 52 illik bir dövrünün özünəməxsus xüsusiyyətləri var. 20-ci əsrin 70- ci illəri sovetlər ölkəsində durğunluq illəri kimi səciyyələnir.

1969-cu il 14 iyulda Heydər Əliyev siyasi rəhbərliyə gəldi. Həmin il avqustun 5-də Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan KP MK –nın plenumu oldu və burada Ulu Öndər respublikanın sosial-iqtisadi böhran vəziyyətinin, uzun müddətli (60-cı illərin) geriliyinin təhlilini verdi, səbəblərini açıqladı və çıxış yollarını müəyyənləşdirdi. Həmin vaxtdan da Azərbaycanda tənəzzüldən tərəqqiyə dönüş başladı. Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycanda dirçəliş, dinamik inkişaf, cəmiyyətin keyfiyyətcə irəliyə, milli özünüdərkə, milli özünə qayıdışa dönüş mərhələsinin başlanğıcı qoyuldu. 1969-1982-ci illərdə Heydər Əliyevin Azərbaycan SSR-də hakimiyyətdə olduğu dövrdə Azərbaycanın ictimai-siyasi, o cümlədən iqtisadi həyatında intibah dövrü başladı.

Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illər respublikamızda, iqtisadiyyatın dirçəlişi, ölkənin təbii ehtiyatlarından, təhsil, elm və digər potensialından xalqın maddi rifah halının yüksəldilməsi üçün şəraitin yaradılması ilə xarakterizə olunur.

Heydər Əliyevin rəhbərliyi ilə qısa müddətdə respublikanın iqtisadi-inkişafının konsepsiyası hazırlanmış,



iqtisadiyyatda, o cümlədən kənd təsərrüfatında ixtisaslaşma, maddi-texniki və müasir istehsal sahələrinin yaradılması ilə bağlı kompleks tədbirlər hazırlanmış və həyata keçirilmişdir.

Ulu öndər Heydər Əliyev Mərkəzdəki nüfuzundan istifadə edərək respublikanın xalq təsərrüfatının inkişaf etdirilməsini təmin etmək üçün iqtisadiyyatın müxtəlif sahələrini əhatə edən Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin aşağıdakı müvafiq qərarlarının qəbul edilməsinə nail olmuşdur: 1970-ci il iyulun 23-də "Azərbaycan SSR-də xalq təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında"; 1970-ci il iyulun 25-də "Azərbaycan SSR-də kənd təsərrüfatını daha da inkişaf etdirmək tədbirləri haqqında"; 1975-ci il iyulun 9-da "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında"; 1976-cı il iyulun 27-də "1976-1980-ci illərdə respublika sənayesinin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsinə dair Azərbaycan KP mərkəzi komitəsinin təkliflərinin nəzərdən keçirilməsi nəticələri barəsində"; 1979-cu il fevralın 22-də "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında" və s. Onu da qeyd edim ki, Heydər Əliyev bu qərarların yerinə yetirilməsini təmin etmək üçün Ümumittifaq büdcəsindən Azərbaycana xeyli əlavə vəsaitin ayrılmasına da nail olmuşdur. Beləliklə, 1969-1982-ci illərdə Heydər Əliyevin çox ciddi, fədakar əməyi, prinsipial iş təcrübəsi sayəsində bu tarixi qərarların yerinə yetirilməsi ilə respublika iqtisadiyyatında mövcud olan uzun müddətli geriliyə son qoyuldu, nöqsanların aradan qaldırılmasında, 1970-1982-ci illərdə respublika iqtisadiyyatının intensiv, dinamik və surətli inkişafında başlıca rol oynadı.

1969-1982-ci illərdə ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi sayəsində respublikada 250-dən çox zavod, fabrik, istehsal sexləri, obyektləri istifadəyə verilmiş, 630 min nəfərlik yeni iş yerləri yaradılmışdır. Bu illərdə neft sənayesinin, neft maşınqayırma, neft kimya, metallurgiya, neft emalı və qaz çıxarma sənayelərinin inkişafında yeni mərhələ başlanmışdı. Yeni neft yataqları aşkar edilmiş və istifadəyə verilmiş, neft və qaz mədənlərinin 80%-i avtomatlaşdırılmışdı. 1969-1982-ci illər neft və neftayırma, qaz sənayesinin əsaslı şəkildə yenidən qurulması ilə səciyyələnib.

## MÜSTƏQİLLİYƏ GEDƏN YOL 1969-CU İL İYULUN 14-DƏ HEYDƏR ƏLİYEVİN SİYASİ HAKİMİYYƏTƏ GƏLMƏSİNDƏN BAŞLAYIR

1969-1982-ci illərdə Azərbaycanın iqtisadi strukturunda keyfiyyətli dəyişikliklərə səbəb olan böyük uğurlar əldə edilmişdi. Araşdırmalar, arxivdəki faktiki və statistik materiallardan məlum olur ki, bu dövrdə respublika sənayesinin təzə sahələri olan elektrotexnika, cihazqayırma, elektron, dəzgahqayırma, avtomatlaşdırma kimi yeni istehsal sahələrinin yaradılmasına başlanmışdı.

Azərbaycan KP MK Bürosu iclasının 13 oktyabr 1972-ci il qərarı ilə Bakı Məişət Kondisionerləri Zavodunun tikintisinə başlanılmış, zavod qısa müddətdə tikilib 1975-ci ildə istifadəyə verilmişdir. Bu illərdə "Azon" və "Ulduz" cihazqayırma zavodları, Sumqayıt Kompressor Zavodu işə düşmüşdür.

1969-1982-ci illərdə Ulu Öndər fədakar əməyi və təşkilatçılığı ilə iqtisadi inkişafın dinamikası Azərbaycanda keçmiş İttifaq respublikalarından xeyli yüksək olmuşdur. Bu illərdə Azərbaycan sosial-iqtisadi inkişaf səviyyəsinə görə İttifaq respublikaları arasında öndə gedərək, birincilərdən biri olmuşdur.

1969-1982-ci illərdə ulu öndər Heydər Əliyevin gərgin əməyi, uzaqgörənliyi nəticəsində Azərbaycan keçmiş Sovetlər Birliyində elektrotexnika sənayesinin ən böyük və əhəmiyyətli mərkəzlərindən birinə çevrilmişdir. 1982-ci ildə Heydər Əliyevin çox böyük fədakarlığı və prinsipiallığı sayəsində Dərin Dəniz Özülləri Zavodunun tikintisinə başlamışdı. (Azərbaycan KP MK-nın 1982-ci il 12 yanvar tarixli Büro iclasının qərarı əsasında)

Bu illərdə Bakıda metropoliten tikintisinə də böyük diqqət yetirilmişdi. 1978-ci ildə "Nizami" stansiyası, 1980-ci illərin əvvəlində isə bu qolun başqa stansiyaları "Elmlər Akademiyası", "İnşaatçılar", "11-ci Qızıl Ordu" (indiki 20 yanvar) və "Memar əcəmi" stansiyaları istifadəyə verilmişdi.

Azərbaycanın paytaxt əhalisinin su təchizatındakı problemləri daimi aktual olduğuna görə, 1970-ci illərin əvvəllərində Heydər Əliyev bu məsələnin həllinə xüsusi diqqət yetirdi. Bakı şəhəri və Abşeron yarımadası əhalisinin içməli su təchizatının yaxşılaşdırılması barədə Azərbaycan KP MK-nın 1971-ci il 2 fevral tarixli Büro iclasında tikintinin ən qısa müddətdə- 1971-ci ilin avqustun 1-nə tam başa çatdırılması və işə salınması haqqında qərar qəbul olunmuşdu.

Bu illərdə Azərbaycanın enerji müstəqilliyi də təmin olundu. Belə ki, Araz, Tərtər, Şəmkir su elektrik stansiyaları, "Azərbaycan" DRES–i işə salındı.

1969-1982-ci illərdə ümumi sahəsi 22.2 milyon kvadratmetr olan mənzillər inşa edildi ki, bu göstərici Azərbaycanda əvvəlki 40-45 ildə tikilmiş mənzillərin 70%-ni təşkil edirdi.

Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 1969-1982-ci illərdə kənd təsərrüfatının dinamik inkişafı, Azərbaycanın iqtisadiyyatında onun rolunun, xüsusi çəkisinin artması ən mühüm iqtisadi nəticələrdən biridir. Üzümçülüyün, pambıqçılığın, taxılçılığın, bağçılığın və digər sahələrin inkişafına başlıca diqqət yetirilmişdi. 1970-1982-ci illərdə üzüm plantasiyaları müvafiq olaraq iki dəfə artaraq 268 min hektara çatmışdı. 1981-ci ildə respublika tarixində ilk dəfə olaraq 1 milyard 151 min ton pambıq, 1 milyon 616 min ton üzüm, 644 min ton tərəvəz, 41 min ton bostan məhsulları, 26 min ton yaşıl çay yarpağı, 125 min ton mal-qara və quş əti, 340 min ton süd, 294 milyon ədəd yumurta və 12 min ton yun tədarük edildi. Bütün bunların nəticəsidir ki, kənd təsərrüfatının ümumi məhsulunun həcmi 2.6 dəfə çoxalmışdı.

1969-1982-ci illərdə geniş sosial-mədəni quruculuq proqramı həyata keçirildi. Azərbaycanın şəhərləri böyüyür, yeni yaşayış massivləri salınırdı. 1972-ci ildə Şıxovda Xalqlar Dostluğu parkının bünövrəsi qoyulmuş, Bakıda böyük kino konsert mərkəzi və indiki Heydər Əliyev adına Respublika Sarayı, mətbuat prospektində yerləşən "Kommunist" (indiki Azərbaycan) nəşriyyatı tikilmişdir. 1976-1987-ci illərdə Azərbaycanda ilk dəfə olaraq böyük informasiya tutumlu 10 cildlik "Azərbaycan Sovet Ensiklopediyası" nəşr edildi.

Heydər Əliyev respublikada elmin inkişafına və təhsil səviyyəsinin qaldırılmasına, səhiyyənin inkişafına böyük qayğı və diqqət göstərmişdir. Azərbaycanda onlarla yeni elmi tədqiqat müəssisələri yaradıldı. Azərbaycan KP MK-nın 18 iyun 1975-ci il tarixli Büro iclasında Bakı İnşaat-Mühəndisləri İnstitutunun yaradılması haqqında qərar qəbul olundu. Azərbaycan KP MK-nın 25 sentyabr 1979-cu il tarixli Büro iclasının qərarı ilə Azərbaycan Kardiologiya Elmi - Tədqiqat İnstitutu yaradıldı. 1974-cü ildə Azərbaycan KP MK-nın 13 fevral tarixli qərarı ilə Bakı şəhərində Zaqafqaziya respublikaları üçün neyrocərrahiyyə mərkəzinin təşkil olunması haqqında qərar qəbul olundu.

Heydər Əliyev milli hərbi kadrlar yetişdirilməsi sahəsində böyük işlər görmüşdü. 1971-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanski adına respublika orta ixtisaslaşdırılmış hərbi təmayüllü internat məktəbi təşkil olundu. 1976-cı ildə hərbi məktəbin fəaliyyətini yaxşılaşdırmaq məqsədi ilə Azərbaycan KP MK-nın və Nazirlər Şurasının qərarı ilə tədbirlər görülmüşdü.

Sovet rejiminin ən güclü vaxtlarında bu məktəbin yaradılması Azərbaycan milli hərbi kadr hazırlığı və müstəqillik illərində ali hərbi məktəblərin yaradılması üçün baza rolunu oynadı. Dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan təhsilinin inkişafında müstəsna xidmətlərindən biri 1970-1980-ci illərdə şəxsi təşəbbüsü və qayğısı sayəsində Azərbaycandan kənarda, keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox nüfuzlu ali məktəbində respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə və xüsusi ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssislər kimi hazırlanmasına imkan və şərait yaradılması olmuşdu.

Həmçinin bu illərdə Azərbaycan gənclərinin əqidəsinə və vətənpərvərlik ruhunda tərbiyə olunmasına da daha çox diqqət yetirildi.

Ulu öndər Heydər Əliyev Azərbaycan milli mədəniyyətinin, incəsənətinin, onun beynəlxalq əlaqələrinin inkişafına da böyük önəm vermişdir. 1969-1982-ci illərdə Azərbaycanın Yaxın və Orta Şərq ölkələri ilə bütün sahələrdə əlaqələrinin qurulmasına böyük diqqət göstərilmişdir.

Beləliklə, XX-ci əsrin 70-80-ci illəri Azərbaycan tarixində yüksəliş dövrü kimi səciyyələnir və bütün bunlar ulu öndər Heydər Əliyevin rəhbərliyi və prinsipiallığı nəticəsində olmuşdur.

Qeyd edək ki, müstəqil dövlət quruculuğunun sosial-iqtisadi əsasları məhz 1969-1982-ci illərdə qoyulmuşdur.

1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycan Respublikası, əslində, real suverenliyə 1993-cü ildə nail oldu. Həmin il xalqın təkidli tələbi ilə Heydər Əliyevin hakimiyyətə qayıdışı baş verdi və bununla da Azərbaycanın milli intibah dövrünün II mərhələsi, müstəqil dövlət quruculuğu dövrü (1993-2003 - cü illər) başladı.

Son 17 ildə isə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında Heydər Əliyev siyasi xətti uğurla davam etdirildi və ölkəmiz daha uca zirvələrə yüksəlməkdədir.

Azərbaycan Prezidenti, Ali Baş Komandanımız İlham Əliyevin böyük rəhbərlik və sərkərdəlik məharəti, güclü iradəsi, qətiyyəti, müzəffər və yenilməz ordumuzun qəhrəmanlığı, xalqın Prezidentə olan birmənalı dəstəyi və onun atdığı istənilən addımı müdafiə etməsi, 44 günlük Vətən müharibəsində şanlı Qələbə, torpaqlarımızın mənfur düşməndən azad edilməsi, ərazi bütövlüyümüzün təmin olunması məhz son 17 ildə bütün sahələrdə, o cümlədən hərbi sahədə aparılan ardıcıl və uğurlu siyasəti nəticəsində əldə olundu.

***İbrahim Zeynalov,***
*Bakı Dövlət Universitetinin professoru*

*İkisahil.az*
*14 iyul 2021-ci il*

# BDU Qarabağ Dirçəliş Fondu ilə əməkdaşlığa başlayır

***İyulun 30-da Bakı Dövlət Universitetində Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə Qarabağ Dirçəliş Fondu ilə BDU arasında əməkdaşlıq məsələləri, birgə layihələrin həyata keçirilməsi, müvafiq elmi tədqiqatların aparılması və s. müzakirə olunub.***

Görüşdə BDU-nun rektoru Elçin Babayev son illərdə BDU-da həyata keçirilən yeni layihələr və elmi-tədqiqat işlərindən, Vətən Müharibəsinə və doğma torpaqlarından didərgin düşmüş məcburi köçkünlərin pozulmuş hüquqlarının təhlilinə həsr olunmuş layihələrdən bəhs edərək Universitetin güclü elmi potensialının və bu sahədə zəngin təcrübəsinin olduğunu bildirib. Qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun parlaq qələbəsi ilə azad olunmuş əzəli torpaqlarımızda quruculuq işlərində, Qarabağ torpaqlarının bərpa olunması üçün həyata keçirilən layihələrdə BDU kollektivi də yaxından iştirak etməyə hazırdır. BDU ilə Fond arasında birgə layihələrin hazırlanması və reallaşdırılması doğma torpaqlarımızın dirçəldilməsinə və davamlı inkişafına töhfə verəcəkdir.

Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev Fondun fəaliyyəti və planları haqqında məlumat verib. Bildirib ki, Fond öz fəaliyyəti çərçivəsində müxtəlif layihələr, o cümlədən Qarabağın maddi dəyərlərinin bərpasına, sərmayələrin cəlb olunmasına və insan kapitalının inkişafına yönəldilmiş layihələr həyata keçirəcək. Qeyd edib ki, Qarabağ Dirçəliş Fondunun əsas fəaliyyəti Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulmasını, yüksək səviyyədə inkişaf etmiş regiona çevrilməsini, məskunlaşma, məcburi köçkünlərin öz torpaqlarına qayıtmasını təmin edəcək mühitin bərqərar olmasına yönəlib. Bu layihələrin reallaşmasında ölkəmizin ən böyük elm və təhsil ocağı olan BDU-nun potensialından və təcrübəsindən istifadə olunması və birgə fəaliyyət ölkəmizin inkişafında birgə uğur salnaməsi yaradaraq, qələbəmizi daha da parlaq edəcəkdir.

Daha sonra Cənubi Qafqaz regionunda yeni geosiyasi reallıq və bölgə ölkələrinin gələcəyi üçün yeni perspektivlər və risklər, Zəngəzur dəhlizinin Cənubi Qafqazda yeni geoiqtisadi modelin folmalaşmasına təsiri, Azərbaycanda post-münaqişə dövrü və yeni idarəçilik modellərinin tətbiqi, Qarabağda rəqəmsal iqtisadiyyatın formalaşması və inkişafı problemləri və perspektivləri, Qarabağ bölgəsinin dirçəldilməsində dövlət-özəl tərəfdaşlığın (public private partnership) tətbiqi, Qarabağda "Ağıllı şəhər" və "Ağıllı kənd" modelinin tətbiqi, post-münaqişə dövründə münbit investisiya mühitinin yaradılması, Qarabağda mövcud olan muzeylərin və abidələrin işğalçı qüvvələr tərəfindən dağıdılması, işğaldan azad edilmiş ərazilərdə yaşıl, inklüziv və dayanıqlı şəhər və qəsəbələrin salınması, alternativ enerji, kosmik təsvirlər, atmosfer, geologiya, biologiya, ekologiya, sosiologiya, psixologiya, hüquq, tarix-arxeologiya, folklor, etnoqrafiya, toponimlər və digər əlaqəli mövzularda layihələrin birgə hazırlanması, həmçinin müştərək proqram və qrant müsabiqələrinin keçirilməsi və s. mövzularda müzakirələr aparılıb.

# QS beynəlxalq təşkilatının regional direktoru BDU-da olub

***İyulun 6-da Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev Böyük Britaniyanın "Quacquarelli Symonds" (QS) konsaltinq şirkətinin Rusiya, Şərqi Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Sergey Xristolyubov ilə görüşüb.***



Rektor Elçin Babayev BDU-nun yeni inkişaf strategiyasına uyğun olaraq aparılan islahatlar və layihələr barədə qonağa məlumat verib. Azərbaycan ali təhsil müəssisələrinin beynəlxalq reytinqlərdə yer alması üçün kifayət qədər potensialının olduğunu və BDU-nun bu istiqamətdə də böyük uğurlar əldə etdiyini vurğulayıb.

Strateji hədəflərə nail olmaq, bu sahədə işlərin daha da təkmilləşdirilməsinin vacibliyini vurğulayan rektor Elçin Babayev Bakı Dövlət Universitetinin QS beynəlxalq reytinqində təmsil olunması ətrafında fikir mübadiləsi aparıb. Milli və beynəlxalq işəgötürənlərlə əməkdaşlığa, yüksək təsir əmsalına malik elmi jurnallarda dərc olunan məqalələrin keyfiyyətinə və sayına, tələbə mobilliyinə, reytinqli universitetlərlə təcrübə mübadiləsinə diqqətin artırılmasının əhəmiyyətindən danışıb.

QS reytinqinin əsaslandığı meyarlar üzrə daha çox və keyfiyyətli informasiya verilməsinin vacibliyinə diqqəti yönəldən Sergey Xristolyubov Universitetdə bu istiqamətdə aparılan işləri yüksək qiymətləndirib. Qonaq görüşdə universitetlərin QS reytinq cədvəlində yer alması meyarlarını ətraflı şəkildə açıqlayıb, siyahıya daxil olmaq üçün vacib olan müraciət formaları və şərtlər haqqında geniş məlumat verib. Bildirib ki, QS reytinqi akademik nüfuza, universitetlərin müəllim-tələbə sayının nisbətinə, məqaləyə istinadlara, xarici müəllim və tələbələrin, elmi dərəcəli kadrların, professor-müəllim heyətinin məqalələrinin sayına, işəgötürənlərin nüfuzuna, həmçinin internet resurslarının effektivliyinə görə müəyyənləşdirilir.

Əksər ölkələrdə universitetlərin beynəlxalq reytinqinin onların elmi fəaliyyəti, təhsili və beynəlmiləlləşməsi ilə ölçüldüyünü deyən Sergey Xristolyubov, QS reytinqində məzunların işlə təmin olunması meyarına da ciddi önəm verildiyini qeyd edib.

Sonda Sergey Xristolyubov 2022-ci il üçün Bakı Dövlət Universitetinin QS reytinqində tutduğu yerin sertifikatını rektor Elçin Babayevə təqdim edib.

# BDU və KOBİA arasında Anlaşma Memorandumu imzalandı




***İyulun 12-də Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və Bakı Dövlət Universitetinin rəhbərliyi arasında işgüzar görüş keçirilib. Görüşdən sonra baş tutan tədbirdə iki qurum arasında əməkdaşlığa dair "Anlaşma Memorandumu" imzalanıb.***

BDU-nun rektoru Elçin Babayev qonaqları və tədbir iştirakçılarını salamlayaraq Azərbaycanın iqtisadi, siyasi, hərbi baxımdan regionda ən güclü dövlət olması və ölkəmizdə hazırda həyata keçirilən quruculuq işləri barədə məlumat verib. Rektor Elçin Babayev ölkəmizdə kiçik və orta sahibkarlığın dövlətin diqqət mərkəzində olduğunu, kiçik və orta biznesə (KOB) ümumilikdə və pandemiya dövründə göstərilən dövlət dəstək tədbirləri, bu sahədə KOBİA-nın gördüyü mühüm işlər haqqında danışıb.

Daha sonra KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov Agentliyin formalaşması, KOBİA-nın fəaliyyəti, KOB-lara göstərilən dəstək mexanizmləri, onun bugünkü vəziyyəti, yenilikləri ilə bağlı tədbir iştirakçılarına məlumat verib. Birgə layihə və proqramlardan bəhs edib, əməkdaşlığın gələcək perspektivləri barədə fikirlərini bölüşüb. O.Məmmədov əlavə edib ki, biznesin müasir tələblər səviyyəsində təşkil edilməsi və rəqabət qabiliyyətinin artırılması məqsədilə elmi yeniliklərin bizneslərə inteqrasiyası önəmlidir. Dünyada olduğu kimi ölkəmizdə də müasir bizneslərin yaradılmasında yüksək təhsilli, innovativ düşüncə tərzinə mailk və daim yeniliklər axtarışında olan gənclər aparıcı qüvvə hesab olunur.

BDU-nun Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin professoru Sərvər Abbasov, II kurs tələbəsi Zümrüd Həmidova kiçik və orta sahibkarlığın mövcud vəziyyəti, ölkədə məşğulluğun təmin edilməsi, qeyri-neft ixracının artırılması, biznes mühitinin inkişafı kimi strateji məsələlərdə sahibkarların rolunun yüksəldilməsi, cəmiyyətdə sahibkarlığa dəstək əhvali-ruhiyyəsinin artırılması haqqında məruzə ediblər.

Universitetin tədris-innovasiya infrastrukturundan KOB subyektlərinin faydalanması, özəl sektor ilə Universitet arasında əlaqələrin gücləndirilməsi üçün əməkdaşlıq platformalarının inkişaf etdirilməsi, Universitetlə əməkdaşlıq çərçivəsində gənclər arasında innovativ sahibkarlıq fəaliyyətinin təşviqi məqsədilə "Biznes İnkubasiya Mərkəzi"nin təşkil edilməsi, Startaplar və biznes inkubatorlar üzrə ideya və biliklərin, o cümlədən "nəzəriyyədən biznesə" prinsipinin reallaşmasına dəstəyin göstərilməsi, biznes potensialının inkişafı üçün tələb olunan araşdırma, statistika və təhlillərin Universitetin təsisatları ilə əməkdaşlıq əsasında həyata keçirilməsi üçün tədbirlər də görüləcəkdir.

Memorandumda beynəlxalq təşkilatlar və fondlardan birdəfəlik qrant formasında vəsait cəlb etmək, qrant layihələrində iştirak etmək və qanunla qadağan edilməyən digər maliyyə resurslarının cəlb olunması istiqamətində birgə fəaliyyət göstərmək, müvafiq dövlət və özəl maliyyə institutlarına birgə təkliflər vermək və qarşılıqlı şəkildə razılaşdırılmış digər fəaliyyətlər də nəzərdə tutulub.

Memorandumu BDU-nun rektoru Elçin Babayev və KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov imzalayıb.

# BDU ilə ABŞ-ın Linkoln Universiteti arasında ikili diplom proqramı üzrə əməkdaşlıq müqaviləsi imzalanıb

***İyulun 17-də Bakı Dövlət Universiteti və ABŞ-ın Linkoln Universiteti (Lincoln University) arasında BDU-nun Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi və Linkoln Universitetinin Biznes inzibatçılığı sahəsində magistratura (MBA) proqramı bazasında Biznesin təşkili və idarə edilməsi, maliyyə ixtisaslaşması üzrə magistratura səviyyəsində ikili diplom proqramına dair əməkdaşlıq müqaviləsinin imzalanma mərasimi keçirilib.***

Qeyd edək ki, Linkoln Universitetində biznes administrasiyası sahəsində yüksək səviyyədə bakalavr (BBA), magistr (MBA) və doktorant hazırlığı həyata keçirilir və sözügedən Universitetin Biznesin təşkili və idarə edilməsi (maliyyə üzrə) proqramı ABŞ-da Biznes Təhsili üzrə Beynəlxalq Akkreditasiya Şurası (IACBE) tərəfindən xüsusi akkreditasiyadan keçmişdir.

Onlayn imzalanma mərasimində BDU-nun rektoru Elçin Babayev, rektorun strateji inkişaf və əlaqələr üzrə müşaviri Əli Nağıyev və Linkoln Universitetinin prezidenti Mixail Brodski iştirak ediblər.

Görüşdə BDU-nun rektoru Elçin Babayev Linkoln Universiteti ilə birgə kadr hazırlığının, universitetlərarası ikili diplom proqramının əhəmiyyətindən bəhs edib və gələcək əməkdaşlığın məhsuldar və faydalı olması üçün bütün zəruri addımların atılacağını bildirib.

Linkoln Universitetinin prezidenti Mixail Brodski çıxışında imzalanma mərasiminin gələcək əməkdaşlığın inkişafına töhfə verəcəyini bildirib və onu birgə əməkdaşlığın istiqamətində görülən işlərin bəhrəsi kimi qiymətləndirib.

Görüşün sonunda BDU və Linkoln Universiteti arasında ikili diplom proqramı üzrə əməkdaşlıq müqaviləsi imzalanıb.

Bu ikili diplom proqramı iqtisadi və idarəetmə elmlərinin fundamental və tətbiqi metodlarından istifadə edərək öz peşə fəaliyyətlərində praktik problemləri təsnif etmək və onları effektiv həll etmək bacarıqlarına malik olan, təhsil, elm və işgüzar fəaliyyət sahəsi üçün ölkəmizdə yüksək ixtisaslı mütəxəssislərin hazırlanması prosesinə təkan verəcəkdir.

# BDU-nun rektoru gənc istedadlarla görüşüb



İyulun 30-da Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev BDU-nun nəzdində "Gənc istedadlar" liseyinə qəbul imtahanlarında ən yüksək nəticə göstərmiş 10 şagird və onların valideynləri ilə görüşüb.

Rektor liseyə qəbul imtahanlarında yüksək nəticə göstərmələri münasibətilə şagirdləri təbrik edib, təhsillərində uğurlar arzulayıb. BDU-nun nəzdində "Gənc istedadlar" liseyində şagirdlərin hərtərəfli biliklərə yiyələnməsi üçün yaradılmış şəraitdən, lisey şagirdlərinin Respublika və dünya olimpiada və müsabiqələrində əldə etdikləri nəticələr haqqında söz açıb. Bildirib ki, cari ildə liseyin şagirdləri Respublika və dünya olimpiadalarında 10 medal qazanmışdır, bunlardan 2-si qızıl, 2-si gümüş, 6-sı bürüncdür. "Sabahın alimləri" onuncu Respublika müsabiqəsində liseyin 21 şagirdi Kompüter elmləri, Kimya, Riyaziyyat, Fizika və Astronomiya, Biologiya, Ekologiya, ətraf mühitin idarə olunması kimi sahələr üzrə müxtəlif mövzularda layihələrlə çıxış etmiş və 3 layihə 1-ci yerə, 5 layihə 2-ci yerə, 3 layihə 3-cü yerə və 1 layihə isə xüsusi mükafata layiq görülmüşdür. Bu il liseyi 9 şagirdimiz qızıl və 2 şagirdimiz gümüş medalla bitirmişdir. Rektor liseyə yeni qəbul olunmuş şagirdlərin də liseyin bu ənənələrini davam etdirəcəyinə əminliyini bildirmişdir.

Daha sonra rektorun elm və təhsil üzrə müşaviri Aydın Kazımzadə, "Gənc istedadlar" liseyinin direktoru Arif Bağırov, direktor müavini Rəfiyyə Cəbrayılova çıxış edərək şagirdləri təbrik etmişdir. Görüşdə iştirak edən valideynlər qəbul imtahanlarının şəffaf keçirilməsi, şagirdlərin öz biliklərini nümayiş etdirə bilməsi üçün yaradılan şəraitə görə Universitet rəhbərliyinə öz təşəkkürlərini bildirmişdir.

Görüşün sonunda rektor ən yüksək nəticə göstərmiş şagirdlərə təşəkkürnamə və hədiyyələr təqdim etmişdir.

# "BDU könüllüləri" ilə görüş

***İyulun 17-də tarixində Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev Universitetin ictimai həyatında fəal iştirak edən bir qrup könüllü tələbə ilə görüşüb.***

Rektor görüşdə ölkəmizdə uğurla həyata keçirilən könüllülük hərəkatı, könüllülük fəaliyyətinin gənclərin işgüzarlığının, bilik və bacarığının artırılmasında, dünyagörüşünün genişlənməsində rolu haqqında söhbət açıb. Universitetdə gənclərin potensialından daha səmərəli istifadə etmək, gənclərin fəal iştirakına şərait yaratmaq, onlara peşə vərdişlərini aşılamaq və praktik biliklərini artırmaq, yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək və ölkədə könüllülük hərəkatını inkişaf etdirmək məqsədilə həyata keçirilən tədbirlərdən danışıb. Könüllülük fəaliyyətinin ictimai, sosial və tərbiyəvi əhəmiyyətinin təşviqi, sosial sahədə çalışacaq könüllülərin yetişdirilməsi və gələcəkdə onların universitetdə işlə təmin olunması məsələsində önəmli rol oynadığını bildirib. Rektor "BDU könüllüləri"nin Universitetin ictimai həyatında fəal iştirak etdiyini xüsusi vurğulayaraq BDU-nun struktur bölmələrində və fakültələrində çalışan könüllü tələbələrin fəaliyyətini yüksək qiymətləndirib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Xüsusi fəallığı ilə seçilən tələbə könüllülərə təşəkkürnamələr təqdim olunub.

Qeyd edək ki, "BDU könüllüləri" qrupu 2020-ci ildə yaradılıb. Az bir müddətdə qrup öz sıralarında 500-dən artıq fəal tələbəni birləşdirib. Hazırda 45 nəfər tələbə Universitetin struktur bölmələrinin və fakültələrin fəaliyyətinə könüllü kimi cəlb olunub.

# BDU-da Milli Mətbuat Gününə həsr olunmuş dəyirmi masa keçirilib



***İyulun 22-də Bakı Dövlət Universitetində Jurnalistika fakültəsinin media nümayəndələri ilə birgə təşkilatçılığı ilə Azərbaycan milli mətbuatının yaranmasının 146-cı ildönümünə həsr edilmiş "XXI əsrin çağırışları və Azərbaycan mediası" mövzusunda onlayn dəyirmi masa keçirilib.***

Tədbirin moderatoru, Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev 146 yaşlı Azərbaycan mətbuatının ölkəmizdə hüququ dövlətin möhkəmləndirilməsində, iqtisadi və siyasi islahatların həyata keçirilməsində, Azərbaycanın dünya birliyinə inteqrasiya etməsində, vətəndaş cəmiyyətinin formalaşmasında mühüm rol oynadığını vurğulayıb.

*Dəyirmi masada BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektou Əliş Ağamirzəyev çıxış edərək, bildirib ki, 1875-ci il iyulun 22-də "Əkinçi" qəzetinin nəşrə başlaması ilə böyük maarifçi və naşir Həsən bəy Zərdabi tərəfindən əsası qoyulmuş Azərbaycan milli mətbuatı ölkəmizdə həmişə qabaqcıl ideyaların carçısı, dövrün, ictimai-siyasi həyatın güzgüsü olub. Müstəqilliyin əldə edilməsindən sonra Azərbaycanda medianın inkişafında xüsusi mərhələ başlayıb. KİV-in inkişafında əldə olunmuş nailiyyətlər Ümummilli Lider Heydər Əliyevin bu sahəyə müstəsna diqqət və qayğısı nəticəsində mümkün olub.*

Ə.Ağamirzəyev Ulu Öndərin 1998-ci il 16 avqust tarixli fərmanı ilə ölkədə kütləvi informasiya vasitələri üzərində senzuranın ləğv edilməsi, növbəti mərhələdə KİV sahəsində qanunvericilik bazasının yaradılması, milli mətbuatın yaranmasının 130, 135, 140, 145 illik yubileylərinin dövlət səviyyəsində qeyd edilməsinin ölkəmizdə mətbuata yüksək dövlət qayğısının təzahürü olduğunu deyib.

44 günlük Vətən Müharibəsində kütləvi informasiya vasitələrinin fəaliyyəti haqqında məlumat verən Ə.Ağamirzəyev iyunun 4-də xidməti vəzifələrinin icra edərkən, Kəlbəcər rayonunun Susuzluq kəndində düşmən minasına düşərək şəhidlik zirvəsinə yüksələn jurnalistlərimiz - AzTV telekanalının operatoru Sirac Abışov, "AZƏRTAC"ın əməkdaşı Məhərrəm İbrahimovun Azərbaycan jurnalistlərinin simvoluna çevrildiklərini, əsgərlərimizlə birgə ön cəbhədə düşmənə sinə gərən Vətən oğulları kimi adlarını şanlı Qarabağ Zəfərinin qəhrəmanları sırasına yazdırdıqlarını qeyd edib. Daha sonra Vətən Müharibəsi dövründə BDU əməkdaşlarının və tələbələrinin informasiya müharibəsində iştirakı, BDU-da həyata keçirilən "Vətən Müharibəsi dövründə medianın fəaliyyətinin təhlili" layihəsi haqqında məlumat verib.

Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev manipulyasiya anlayışı, informasiya cəmiyyəti, jurnalistin ekstermal vəziyyətdə davranış qaydaları, ənənəvi və sosial mediada məsuliyyətliliyin artırılmasının əhəmiyyəti, ekstremal vəziyyətdə medianın funksionallığı, müharibə şəraitində informasiya məkanının qorunması, informasiya təhlükəsizliyinin və milli və dövlət maraqlarının təmin olunması haqqında ətraflı məlumat verib.

Daha sonra dəyirmi masada "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, Beynəlxalq Jurnalistlər Federasiyasının Azərbaycan təmsilçisi Müşfiq Ələsgərli, Jurnalistika fakültəsinin Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri Cahangir Məmmədli, Multimedia və elektron kommunikasiya kafedrasının müdiri Allahverdi Məmmədli, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı çıxış ediblər. Çıxışlarda milli mətbuatımızın keçdiyi inkişaf yolu, bugünkü uğurları, mətbuatın inkişafı üçün dövlətin göstərdiyi diqqət və qayğı, 44 günlük Vətən Müharibəsində medianın fəaliyyəti, müharibə vəziyyətində informasiya təhlükəsizliyinin təmin edilməsi və medianın məsuliyyəti, informasiya xaosu, mediada hərbi sirlərin yayılmasının qarşısının alınması, pandemiya dövründə medianın fəaliyyət mexanizmi, "infodemiya" anlayışı kimi məsələlərdən bəhs olunub.

# BDU-da ABŞ-ın "BLACKBOARD" platformasının tətbiqinə başlanıldı

***Bakı Dövlət Universitetində 2020/2021-ci tədris ilinin yay semestrinin "BLACKBOARD" – tədrisin idarə edilməsi sistemi vasitəsilə təşkilinə start verilmişdir. BDU 2021-ci ilin may ayından etibarən ABŞ-ın "Blackboard" şirkəti ilə əməkdaşlığa başlamışdır.***



Qısa zaman ərzində keçirilmiş təlimlər, qazanılmış bacarıqlar nəticəsində bakalavriat və magistratura səviyyələri üzrə bu tədris ilinin yay semestrinin Blackboard sistemi vasitəsilə təşkil edilməsinə qərar verilmişdir. 22 iyul tarixindən başlanılan proses hazırda uğurla davam etdirilir. 700-dən çox tələbə və 102 müəllim ümumilikdə 170 fənn üzrə tədris prosesində iştirak edir. Tədris materiallarının elektron qaydada sistemə yüklənməsi, tələbələrə asan yolla çatdırılması, BLACKBOARD COLLABORATE platforması vasitəsilə tədris prosesinin onlayn qaydada təşkili həyata keçirilir.

Tələbələr artıq sistem üzərindən qiymətləndirilir, dərslərin video yazılışı aparılır və tələbələrin davamiyyəti sistem tərəfindən avtomatik qaydada yoxlanılaraq şəxsi kabinetlərdə öz əksini tapır. Eyni zamanda, mobil tətbiq vasitəsilə məlumatların daha rahat əldə edilməsi təmin edilir. Gündəlik olaraq tələbə və müəllimlərin aktivliyi təhlil olunur, sistemə giriş zamanı çətinlik yaşayan tələbələr üçün video təlimatlar hazırlanaraq təqdim edilir. Fərdi qaydada problemin həlli, "Qaynar xətt" vasitəsilə çətinliyin aradan qaldırılması istiqamətində işlər görülür.

Bundan başqa BDU-nun müəllim kollektivinə könüllülük prinsipi əsasında təlimlərin keçirilməsi davam etdirilir. 2021/2022-ci tədris ilindən etibarən tam olaraq tədris prosesinin elektron idarə olunması üçün Blackboard sisteminin bütün tələbə və müəllim kontingenti arasında tətbiqinə start verilməsi planlaşdırılır.

# BDU Elmi Şurasının onlayn iclası keçirilib



***İyulun 8-də Bakı Dövlət Universitetində 2020/2021-ci tədris ilində Elmi Şuranın son iclası keçirilib.***

İclasda 2020/2021-ci tədris ilinin yaz semestrinin imtahan sessiyasının və Yekun Dövlət Attestasiyasının nəticələri haqqında hesabat dinlənilib. BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov 2020/2021-ci tədris ilinin yaz semestrinin yay imtahan sessiyasının və Yekun Dövlət Attestasiyasının nəticələri haqqında məruzə ilə çıxış edib. Hesabatda qeyd olunub ki, BDU-da onlayn keçirilən imtahan sessiyasında bakalavriat səviyyəsində təhsil alan 16132 (14805-i əyani, 101-i əlavə təhsil olmaqla) tələbə, magistratura səviyyəsində 868 magistrant imtahan verib. BDU-nun Qazax filialında isə imtahanlarda 1138 nəfər tələbə iştirak edib. Sonuncu kurs tələbələrindən 4826 nəfərin Yekun Dövlət Attestasiyası ÜOMG-yə uyğun qiymətləndirilib, 226 nəfər tələbə buraxılış işi müdafiə edib. 156 nəfər Universiteti fərqlənmə diplomu ilə bitirib. Sonra Apellyasiya Komissiyasının sədri Elşad Qurbanov komissiyanın fəaliyyəti haqqında hesabat verib. Qeyd edib ki, sessiya müddətində komissiyanın qaynar xəttinə 107 müraciət daxil olub və bütün müraciətlər operativ həll edilib.

Daha sonra 2020/2021-ci tədris ilinin yay semestrinin təşkili haqqında məlumat verilib, Hüquq fakültəsinin və BDU-nun nəzdində Fizika Problemləri Elmi Tədqiqat İnstitutunun 2020-ci il üzrə hesabatı dinlənilib. Şura üzvləri təqdim olunan hesabatlar haqqında fikir və rəylərini bildiriblər.

Elmi Şura cari məsələlərin müzakirəsi ilə yekunlaşıb.

# "Qarşılıqlı dövlətlərarası münasibətlər Azərbaycan və Böyük Britaniya KİV-də" mövzusunda elmi seminar

**İyulun 13-də Jurnalistika fakültəsində "Qarşılıqlı dövlətlərarası münasibətlər Azərbaycan və Böyük Britaniya KİV-də" mövzusunda onlayn elmi seminar keçirilib.** Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının doktorantı Pərviz Məsməliyev elmi seminarda mövzu ilə bağlı məruzə edib, Azərbaycanla Birləşmiş Krallıq arasında iqdisadi, siyasi və mədəni əlaqələrdən bəhs edib. Doktorant müstəqillik illərində Azərbaycan və Böyük Britaniya arasında olan əməkdaşlıq məsələlərinin həm Azərbaycan, həm də Britaniya mətbuat orqanlarında dərc edilən materialları araşdıraraq təhlil etdiyini vurğulayıb.

Sonra fakültənin elmi işlər üzrə dekan müavini Sevinc Əliyeva, doktorantın elmi rəhbəri, Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının müdiri professor Həmid Vəliyev, kafedranın müəllimləri dosentlər Pərvanə İbrahimova, Vəfa İsgəndərova, Aytəkin Zeynalova çıxış edərək məruzə ilə bağlı fikirlərini bildiriblər.

Elmi seminar mövzu ətrafında müzakirə ilə yekunlaşıb.

# Kitabxanaçılıq-informasiya fakültəsi Tərtər Rayon İcra Hakimiyyəti ilə birgə tədbir keçirib

**İyulun 22-də Kitabxanaçılıq-informasiya fakültəsinin və Tərtər Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Tərtər rayon Heydər Əliyev Mərkəzində BDU-nun Kitabşünaslıq və nəşriyyat işi kafedrasının dosenti Rasim Süleymanovun "Ulu Öndər Heydər Əliyev və Azərbaycanın kitab mədəniyyəti" monoqrafiyasının təqdimat mərasimi keçirilib.** Tədbir iştirakçıları əvvəlcə rayonun mərkəzi meydanında Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət ediblər. Sonra Rasim Süleymanovun Tərtər Rayon MKS-yə hədiyyə etdiyi kitabların (min beş yüz nüsxə) sərgisinə baxış keçirilib.

"Ulu Öndər Heydər Əliyev və Azərbaycanın kitab mədəniyyəti" monoqrafiyasının təqdimat mərasimini giriş sözü ilə açan Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov qonaqları salamlayıb, 44 günlük Vətən Müharibəsi günlərində rayon əhalisinin göstərdiyi fədakarlıqdan bəhs edib. Bildirib ki, Azərbaycan Ordusu Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi ilə hərb tarixinin yeni və şanlı salnaməsini yazdı. Qeyd edib ki, Vətən Müharibəsi dövründə məkrli düşmən Tərtər şəhəri də daxil olmaqla 40 yaşayış məntəqəmizə 16 min 277 top, tank, qrad mərmisi, 21 qadağan olunmuş raket atıb. Bunun nəticəsində 16 nəfər mülki şəxs şəhid olub, 63 nəfər isə yaralanıb. Ancaq tərtərlilər doğma yurdlarını tərk etməyib, ön cəbhədə olduğu kimi arxa cəbhədə də qəhrəmanlıq, şücaət göstəriblər. Müstəqim Məmmədov Ümummilli Lider Heydər Əliyevin Azərbaycan mədəniyyətinin, elm və təhsilinin inkişafındakı misilsiz xidmətlərindən, ölkəmizdə kitabxana sahəsinin inkişafına göstərdiyi diqqət və qayğıdan danışıb. Bildirib ki, bütün bunlar ölkəmizdə kitabxana işinin təkmilləşdirilməsinə, kitab nəşrinin və kitabxanaların inkişafına, həmçinin bu sahədə kadr hazırlığına ciddi təkan verib. O, BDU-nun dosenti Rasim Süleymanovun "Ulu Öndər Heydər Əliyev və Azərbaycanın kitab mədəniyyəti" monoqrafiyasının təqdimat mərasiminin Tərtər rayonunda keçirilməsinə şərait yaratdıqlarına görə Universitet rəhbərliyinə minnətdarlığını bildirib.





Sonra Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov, BDU-nun Kitabxanaçılıq-İnformasiya fakültəsinin dekanı vəzifəsini icra edən Ələmdar Cabbarlı, Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri Knyaz Aslan, "Akademkitab" Birliyinin Baş direktoru, filologiya elmləri doktoru Əlağa Cəfərov, Tərtər Rayon MKS-in direktoru İlduzə Qurbanova, Tərtər Rayon Heydər Əliyev Mərkəzinin direktoru Səlimə Yusifova çıxış edərək Ümummilli Lider Heydər Əliyevin müstəqilliyimizin möhkəmləndirilməsində əvəzsiz xidmətlərindən, ölkəmizdə kitabxana sahəsinin inkişafına göstərilən dövlət qayğısından danışıblar. Sonda "Ulu Öndər Heydər Əliyev və Azərbaycanın kitab mədəniyyəti" monoqrafiyasının müəllifi Rasim Süleymanov təqdimat mərasiminin təşkilatçılığı üçün Bakı Dövlət Universitetinin və Tərtər Rayon İcra Hakimiyyətinin rəhbərliyinə təşəkkürünü bildirib.

# BDU şəhid, qazi tələbə və məzunları ilə bağlı kompleks tədbirlər həyata keçirir

***2020-ci ilin sentyabr ayının 27-də başlanan və Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında Şanlı Ordumuzun Böyük Qələbəsi ilə başa çatan və Azərbaycan tarixinə əbədi həkk olunan 44 günlük Vətən Müharibəsində Bakı Dövlət Universitetinin tələbə və məzunları da qəhrəmancasına iştirak etmiş, həm ön, həm də arxa cəbhədə böyük şücaət və rəşadətlə mübarizə aparmışlar.*** **Vətən müharibəsində Bakı Dövlət Universitetinin onlarla məzunu iştirak etmiş, onlardan 18 nəfəri şəhidlik zirvəsinə ucalmışdır:**

Salayev Elşən Fuad oğlu (Tarix fakültəsi), Şalıyev Ceyhun Nüsrət oğlu (Hüquq fakültəsi), Nadirli Nadir Arzu oğlu (Biologiya fakültəsi), Qurbanov Tərxan Zabit oğlu (Biologiya fakültəsi), Eyyubov Tural Yadulla oğlu (Tətbiqi riyaziyyat və kibernetika fakültəsi), Əlizadə Yüksəl İlqar oğlu (Tarix fakültəsi), Zeynallı Fikrət Akif oğlu (Fizika fakültəsi), Həbibli Şəhriyar Vidadi oğlu (Fizika fakültəsi), Məmmədov Kənan Nifdalı oğlu (Filologiya fakültəsi), Quliyev Hüseyn Həsən oğlu (Tarix fakültəsi), Məmmədov Vüqar İlqar oğlu (İlahiyyat fakültəsi), Nəcəfov Şamil Rəfi oğlu (Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi), Dadaşov Seyfəddin Məhiyyədin oğlu (Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi), Bəhmənli Manaf Bəhmən oğlu (Mexanika-riyaziyyat fakültəsi), Əhmədov Nicat Həsən oğlu (Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi), Manafov Cavid Faiq oğlu (Sosial elmlər və psixologiya fakültəsi), Musaoğlu Ataməli Seyidməmməd oğlu (Sosial elmlər və psixologiya fakültəsi), Əbilov Nurlan Fərrux oğlu (Coğrafiya fakültəsi).

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə şəhid tələbə və məzunlarımız müxtəlif orden və medallarla təltif edilmişdir.

Universitetin kollektivi, struktur bölmələri, eləcə də tələbə təşkilatları şəhidlərimizin xatirəsini daim uca tutmaq, tələbə-gəncləri şəhid və qazilərimizin qəhrəmanlıqları ilə tanış etmək məqsədilə mütəmadi tədbirlər həyata keçirir. Universitet rəhbərliyinin qərarına əsasən, şəhidlərimizin xatirəsinin uca tutulması, şəhidlik zirvəsinə ucalmış məzunlarımıza diqqət və qayğı göstərilməsi, qazi tələbələrimizin təhsil problemlərinin öyrənilməsi və həlli istiqamətində müvafiq dəstəyin göstərilməsi, qəhrəman məzunların fakültələrdə tələbələrlə görüşlərinin keçirilməsini və s. nəzərdə tutan Tədbirlər Planı işlənilib hazırlanmışdır.

Tədbirlər Planına müvafiq olaraq, şəhidlərimizin xatirəsinin əziz tutulması, qəhrəman döyüşçülərimizin təhsil problemlərinin öyrənilməsi və onlara qayğı və diqqət göstərilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.




*BDU-nun şəhid tələbə və məzunlarının xatirə lövhəsi yaradılmışdır. BDU-nun əsas binasının foyesində BDU-nun şəhid tələbə və məzunlarının xatirə lövhəsində müqəddəs şəhidlərimizin hər birinin fotoşəkli əks olunmuşdur.*

Vətən müharibəsində iştirak etmiş BDU tələbələrinin təhsil problemləri diqqətlə təhlil edilir, onlara pedaqoji, metodiki dəstəyin göstərilməsi istiqamətində müntəzəm iş aparılır. BDU Elmi Şurasının 2021-ci il 3 fevral tarixli iclasının qərarı ilə Vətən Müharibəsi iştirakçısı olmuş alt qruplarda təhsil alan BDU tələbələrinin ödənişləri BDU büdcəsindən ödənilir. Həmçinin müharibə iştirakçısı olan tələbələrin təhsil problemlərini həll etmək üçün, qanunvericiliyə müvafiq olaraq, bütün şərait yaradılır.

***BDU-nun şəhid məzunlarına həsr olunmuş videoçarxlar hazırlanaraq təqdim edilir.*** BDU TV və BDU Tələbə Gənclər Təşkilatının (TGT) təşkilatçılığı ilə şəhid və qazi tələbə və məzunlarımıza həsr olunmuş, onların keçdiyi şərəfli döyüş yolu, valideynlərinin, ailə üzvlərinin, tələbə yoldaşları və müəllimlərinin xatirələrinin əks olunduğu videoçarxların hazırlanmasına başlanılmışdır. Sosial elmlər və psixologiya fakültəsinin şəhidlik zirvəsinə ucalmış məzunu Cavid Manafova həsr olunmuş ilk videoçarx ictimaiyyətə təqdim edilmişdir. Hazırda Vətən müharibəsində şəhid olan digər tələbə və məzunlar haqqında videoçarxlar hazırlanır.

Hüquq fakültəsində də "Qəhrəmanını tanı" layihəsi çərçivəsində qəhrəmanlarımızın gənclər arasında tanıdılması məqsədilə videoçarxlar hazırlanır. İlk videoçarx Hüquq fakültəsinin Vətən Müharibəsində rəşadətlə döyüşmüş və şəhidlik zirvəsinə ucalmış məzunu Ceyhun Şalıyevə həsr olunmuşdur.

***Hazırda BDU TV-də BDU-nun 18 nəfər şəhid məzunu haqqında sənədli film hazırlanır.***

BDU-nun şəhid məzunlarının ailələri ilə mütəmadi əlaqə saxlanılır, onlara diqqət və qayğı göstərilir, şəhid valideynləri Universitetdə təşkil olunan tədbirlərə dəvət olunurlar. BDU-nun rəhbərliyi, professor-müəllim heyəti, eləcə də tələbə təşkilatlarının üzvləri şəhid məzunların ailələrini ziyarət edir, onlarla müntəzəm əlaqə saxlayırlar.

***BDU və Missiya internet televiziyasının birgə layihəsi - "BDU-nun tarix yazan şəhid məzunları" layihəsi çərçivəsində şəhidlərimiz haqqında reportajlar hazırlanır.*** Layihənin məqsədi Universitetin şəhidlik zirvəsinə ucalmış məzunlarının xatirəsini yaşatmaq, onların şərəfli döyüş yolunu yaddaşlara əbədi həkk etməkdir. Bu məqsədlə Universitet kollektivinin və tələbə təşkilatlarının iştirakı ilə ziyarət olunan şəhid ailələrindən reportajlar hazırlanır və geniş ictimaiyyətə təqdim edilir. Layihə çərçivəsində BDU-nun şəhid tələbə və məzunlarından Cavid Manafov, Nicat Əhmədov, Şamil Nəcəfov, Manaf Bəhmənli, Ceyhun Şalıyev, Vüqar Məmmədov, Ataməli Musaoğlu haqqında reportajlar hazırlanmışdır. Reportajlarda şəhid məzunlarımızın həyat yolu və keçdikləri şərəfli döyüş yolu barəsində həm valideynlərinin, həm də Universitet müəllimlərinin fikirləri öz əksini tapır. Hazırda layihə davam etdirilir.

*2021-ci il 10 iyun tarixində Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev və Universitetin əməkdaşları Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin məzunu, Vətən Müharibəsində şəhidlik zirvəsinə ucalmış Şamil Nəcəfovun ailəsi ilə görüşmüş, məzarını ziyarət etmişdir. Şəhidin ali təhsil haqqında diplomu valideynlərinə təqdim olunmuşdur.*

BDU-nun şəhid tələbə və məzunları və qazi tələbələri haqqında məqalələr, müsahibələr hazırlanaraq ölkənin kütləvi informasiya vasitələrində dərc olunur. Qəhrəmanlarımızın keçdiyi şərəfli döyüş yolu, eləcə də onlar haqqında xatirələr qələmə alınaraq mətbuatda işıqlandırılır. Sosial elmlər və psixologiya fakültəsinin şəhid məzunu Cavid Manafovun dayısı qızı Nigar İbrahimovadan müsahibə alınmış, Jurnalistika fakültəsinin tələbəsi Əsgər İsmayılov "Xarı bülbülün yarı Şuşa" adlı məqalə hazırlamış və mətbuatda işıqlandırılmışdır. Jurnalistika fakültəsinin magistrantı Kənan Novruzovun Vətən Müharibəsi qazisi Elmir Səftərov haqqında, Tarix fakültəsinin şəhid məzunu Elşən Salayev haqqında "Şəhid əsgərin atası: Onu arxeologiya dəlisi adlandırırdılar", "44 gün" adlı sənədli film: Şaxta sümüyümüzü kəssə də", "Qələmini süngüyə çevirən jurnalist - baş leytenant: cibində vəsiyyətini yazdığı kağız var idi", "Tələbə-həkimdən təsirli sözlər: Yaralı əsgərlər ağlayıb deyirdilər ki.. ağ ümid", "Şəhidlərin portretini çəkən rəssam: Allahdan başqa nə istəyirəm ki", BDU-nun Biologiya fakültəsinin şəhid məzunu Tərxan Qurbanov haqqında hazırladığı silsilə yazılar və s. mətbuatda dərc edilmişdir.

***Eləcə də BDU-nun rəsmi saytı, sosial media hesabları və "Bakı Universiteti" qəzetində şəhid tələbə və məzunlarımız, qəhrəman qazilərimiz haqqında mütəmadi olaraq materiallar dərc olunur.***

Vətən Müharibəsi iştirakçısı olan tələbə və məzunlarla onlayn mütəmadi görüşlər, dəyirmi masalar və s. keçirilir. 2020-ci il 17 dekabr tarixində Biologiya, 2021-ci il 11 fevral tarixində Şərqşünaslıq, 2021-ci il 12 fevral tarixində Tətbiqi riyaziyyat və kibernetika, 2021-ci il 15 fevral tarixində Tarix, 2021-ci il 15 fevral tarixində Hüquq, 2021-ci il 22 fevral tarixində Coğrafiya fakültəsində Vətən Müharibəsi iştirakçısı olan BDU tələbə və məzunları ilə tələbələrin onlayn görüşü keçirilmişdir.

2021-ci ilin 12 mart tarixində Kitabxanaçılıq-informasiya fakültəsində şəhid ailələri, əsgər anaları və Vətən Müharibəsi qaziləri ilə dəyirmi masa təşkil olunmuşdur.

17 mart 2021-ci il tarixində BDU Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə "Şəhid ailələrinə və qazilərə qayğı hər birimizin borcudur" adlı onlayn tədbir keçirilmişdir. 03 aprel 2021-ci il tarixində Mexanika-riyaziyyat fakültəsində Aprel döyüşlərinin 5 illiyinə həsr olunmuş qazilərlə tələbələrin görüşü, 15 aprel 2021-ci il tarixində isə Jurnalistika fakültəsində fakültənin Vətən Müharibəsində iştirak edən qazilərlə tələbələrin görüşü keçirilmişdir.

***2021-ci il 16 mart tarixində Filologiya fakültəsinin təşkilatçılığı ilə "Zəfər yolu" adlı onlayn tədbir keçirilmişdir.*** Tədbirdə fakültənin məzunları, Vətən Müharibəsi iştirakçıları Ülvi Əhmədov, Oktay Cahangirov və Elnur Soltanov öz döyüş yolları haqqında danışmışlar.

2021-ci il 16 mart tarixində TGT və Şərqşünaslıq fakültəsinin təşəbbüsü ilə keçirilən, şəhid Xudayar Yusifzadənin xatirəsinə həsr olunmuş tədbirdə qazilərlə görüş tələbələrdə böyük təəssürat yaratmışdır.

2021-ci ilin 14 aprel tarixində BDU Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə "Şəhidlər - mənəviyyata açılan pəncərə" adlı onlayn tədbir keçirilmişdir.

2021-ci ilin 12 iyul tarixində BDU-nun şəhid məzunu Cavid Manafovun yaşadığı ünvanında barelyefinin açılış mərasimi keçirilmişdir. Açılış mərasimində BDU-nun rəhbərliyi, şəhid Cavid Manafovun təhsil aldığı Sosial elmlər və psixologiya fakültəsinin rəhbərliyi, tələbə təşkilatlarının üzvləri iştirak etmişlər.

Vətən Müharibəsinə həsr olunmuş müsabiqələr keçirilmişdir. 2020-ci ilin 15 dekabr tarixində "Vətən müharibəsi BDU tələbələrinin gözü ilə" onlayn rəsm müsabiqəsi elan olunmuş, müsabiqə qaliblərinin əsərləri KİV-də dərc olunmuşdur.

2021-ci il 2 mart tarixində Kimya fakültəsində "Qarabağa bahar gəldi" onlayn rəsm müsabiqəsi elan edilmiş, müsabiqəyə tələbələr parlaq Qələbəmiz və qəhrəman əsgərlərimizə həsr etdikləri rəsmləri təqdim etmişdir.

***BDU-nun şəhid məzunlarına həsr olunmuş kitab nəşrə hazırlanır.*** Vətən Müharibəsində şəhidlik zirvəsinə ucalmış BDU-nun məzunlarının xatirəsini yaşatmaq və onların keçdiyi qəhrəmanlıq yolunu gənclər arasında tanıtmaq məqsədilə xatirə kitabı nəşrə hazırlanır. Kitabda BDU-nun 18 qəhrəman şəhid məzunu haqqında müəllimlərinin və tələbə yoldaşlarının fikirləri də öz əksini tapacaqdır.

Tədbirlər Planına müvafiq olaraq BDU-da Vətən Müharibəsində iştirak edən, ərazi bütövlüyümüzün bərpası uğrunda canını fəda edən və şəhidlik zirvəsinə ucalmış tələbə və məzunlar, müharibə iştirakçıları ilə bağlı müxtəlif layihələr, tədbirlər davam edir.

Şəhidlər bizim qürur yerimiz, fəxrimizdir. Gənc nəslə qürur yerimiz olan şəhidlərimizi tanıtmaq, onları vətənpərvər ruhda böyütmək, torpağına bağlı, millətinə hörmət hissi ilə tərbiyə etmək isə hər bir vətəndaşın ön ümdə vəzifəsidir. Şəhidlərimizi yad etmək, xatirəsini əziz tutmaq hər birimizin ən müqəddəs borcudur.

***Ramin Səmədov,***
*Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri*

# Dilin varlığı millətin varlığıdır

## Filologiya elmləri doktoru, professor, Əməkdar jurnalist Nəsir Əhmədli ilə müsahibə

***- Nəsir müəllim, uzun illər həm jurnalist fəaliyyəti ilə məşğul olmusunuz, həm də Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində təlim-tərbiyə prosesində iştirak etmisiniz, bu sahədə professorsunuz. Azərbaycan ədəbi dilinin saflığını, düzgünlüyünü qoruyan dil normalarının keşikçilərindənsiniz. Mediada ədəbi dilin normalarına əməl olunmasının hazırkı vəziyyətini necə dəyərləndirirsiniz?***

- Dilimizin inkişafı tarix boyu həmişə vətənpərvər ziyalılarımızın diqqət mərkəzində olub. Bu gün də belədir, gələcəkdə də belə olacaq. Dil millətin varlığının əsas atributudur, yəni dil yoxdursa, millət də yoxdur. Sevinirəm ki, bu atributun qorunmasında mənim də azacıq xidmətim var. Düz 50 ildir, mən peşəkar jurnalistikadayam. 1971-ci ildə BDU-nun Jurnalistika fakültəsini bitirdikdən sonra 4 ildən artıq Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində redaktor vəzifəsində çalışmışam. 1975-ci ildə elmi-pedaqoji fəaliyyətlə məşğul olmaq üçün doğma fakültəmizə dəvət olunmuşam, namizədlik və doktorluq dissertasiyaları müdafiə etmişəm. Fakültəyə qayıtdıqdan sonra da praktik jurnalistikadan ayrılmamışam. Bütün bu müddətdə həmişə ana dilimizin qorunması, saflığı, zənginləşməsi uğrunda mübarizə aparmışam, bildiklərimi gənc jurnalistlərə öyrətməyə çalışmışam. İndi onların çoxu mənə "ustad" deyə müraciət edirlər və bu ifadə mənim çox xoşuma gəlir.

1980-ci illərin əvvəllərində fakültəmizdə "Jurnalistin nitq mədəniyyəti" fənninin əsası qoyulub və o vaxtdan bu günə qədər həmin kursu mən tədris edirəm. Bu sahə ilə bağlı iki dərs vəsaitinin, bir dərsliyin, onlarca elmi məqalənin müəllifiyəm. "Jurnalistin nitq mədəniyyətinin əsasları" dərsliyi iki dəfə Dövlət Mükafatına təqdim olunub. Arzu edərdim ki, başqa fakültələrdə də analoji fənn tədris olunsun. Məsələn, Hüquq fakültəsində "Hüquqşünasın nitq mədəniyyəti" kursu təşkil edilsin, çünki hüquq-mühafizə orqanları əməkdaşlarının düzgün danışmaları və yazmaları vacib şərtlərdəndir.



Mediada çalışan jurnalistlərin dilə münasibətinə gəlincə, deyə bilərəm ki, bunların əksəriyyəti bu və ya digər dərəcədə dil normalarına əməl edirlər. Bununla belə, bəzi şou-proqramların aparıcıları bu mühüm sahəyə laqeyd yanaşır, efir üçün məqbul sayılmayan ifadələrə öz nitqlərində geniş yer verirlər. Yaxşı olardı ki, belələri üçün xüsusi nitq mədəniyyəti kursları təşkil edilsin.

***- Kütləvi informasiya vasitələrində ən çox diqqətinizi çəkən dil qüsurları nələrdir?***

- Qüsur çoxdur: mətnlərdə məntiq qanunlarının pozulması, cümlələrdə sözlərin düzgün sıralanmaması, pleonazmların, yeni lüzumsuz sözlərin və şəkilçilərin işlədilməsi, orfoqrafiya və orfoepiya tələblərinə əməl edilməməsi və s.

***- Son vaxtlar başqa sahənin mütəxəssisləri dilçilik məsələləri haqda daha çox danışırlar. Buna münasibətiniz necədir?***

- İxtisasından asılı olmayaraq hər bir ziyalı ana dilini mükəmməl bilməli, yeri gəldikcə onun təbliği ilə də məşğul olmalıdır. Bəzən başqa sahənin mütəxəssisləri dilçilik sahəsində daha böyük uğur əldə edirlər. Məsələn, professor Qulu Məhərrəmli və professor Ramiz Əskər ixtisasca jurnalist olsalar da, daha çox dilçi kimi tanınırlar.

***- Nəsir müəllim, alınma sözlər məsələsinə dair fikrinizi bilmək istərdik. Milli mətbuatımızın banisi Həsən bəy Zərdabi o vaxt üçün alınma sözlərin dilimizə gəlişini təqdir etməkdə haqlı idimi? Bu gün alınma sözlərə ehtiyac varmı? Yoxsa ana dilimizdə qarşılığı yaradılmalıdır?***

- "Jurnalistin nitq mədəniyyətinin əsasları" dərsliyindən bir hissəni burada verməklə sualınızı daha geniş cavablandırmaq istəyirəm. Bunu ayrıca bir məqalə kimi də dəyərləndirə bilərsiz.

Dili zənginləşdirməyin ən geniş yayılmış üsulu başqa dillərdən sözalmadır. Bəzən bu prosesə hədsiz pis münasibət duyulur, lakin milli-professional jurnalistikamızın banisi Həsən bəy Zərdabinin yazdığı kimi, "dil bir şeydir ki, onu öz halında saxlamaq mümkün deyil. Elə ki, qaranlıq otağın qapısı açıldı, qeyri tayfalarla gediş-gəliş artdı, artıq şeylər ələ gəldi və adətlər dəyişildi, təzə sözlərin qədri günü-gündən artacaqdır. Belə sözlərin artmağının dilə zərəri yoxdur, xeyiri var, çünki o sözlər tərəqqi etməyə səbəb olur".

Rus və ingilis dillərinin təcrübəsi göstərir ki, başqa dillərdən söz almaqla hətta müstəqil milli dil də yaratmaq mümkündür. Rus dilinin alınma sözlərinin heç də hamısını əhatə etməyən, daha çox qədim yunan və latın dillərindən əxz olunmuş "Əcnəbi sözlər lüğəti"ndə 20 minə yaxın söz var. Bu gün Azərbaycan türkcəsində işlənən, çoxumuzun rus sözləri kimi tanıdığımız alınmaların da əksəriyyəti rus dili vasitəsilə Qərbi Avropa dillərindən gəlib. Aşağıdakı şəkildən də göründüyü kimi, ingilis dilindəki sözlərin yalnız 26 faizi onun daxil olduğu german dil qrupuna aiddir, qalanları isə latın (29 %), fransız (29 %), yunan (6 %), Norveç (4 %) və başqa naməlum dillərdən (6 %) alınmışdır.

Bu baxımdan Azərbaycan türkcəsi əsasən öz kökü üstündə dayanıb inkişaf edən azsaylı dillərdən biridir. Feillərin, sayların, bizi əhatə edən təbii əşya, hadisə, bədən üzvləri adlarının və s. demək olar, hamısı öz sözlərimizdir. Bununla belə, ərəb, fars, Avropa dillərindən alınmalarımız da az deyil. Dilimizdə sözalma prosesi olub, var və olacaq. Məsələ burasındadır ki, əcnəbi sözlər, bir qayda olaraq, əcnəbi əşyalarla (proseslərlə) birlikdə alınır və onlara qurama "milli" adlar vermək cəhdi də çox vaxt uğursuzluqla nəticələnir, həmin sözlərə yalnız bir qrup ziyalının nitqində rast gəlirik. Təkcə onlar xolodilnikə soyuducu, ruçkaya qələm deyirlər. XX əsrin 70-ci illərində Yaponiyanın Hitaşi firmasının lisenziyası əsasında Bakıda Məişət kondisionerləri zavodu tikildi. O zaman kondisioner (latınca: normaya salan, müəyyən vəziyyətə gətirən) bizim üçün yeni söz idi. Onu sərinkeş adlandırdıq, lakin bir çox başqa terminlər kimi üç səbəbdən onun da ömrü qısa oldu: 1) Həmin əşyanın özü bizə yad idi (traktor kimi, parovoz kimi); 2) Söz dilimizin qanunları əsasında yaradılmamışdı: -keş leksik şəkilçisi isimə artırılaraq ona çəkən anlamını verir (zəhmətkeş - zəhmət çəkən; xətkeş - xətt çəkən; cəfakeş - cəfa çəkən…). Sərin sözü isə sifətdir. Sonralar məlum oldu ki, kondisioner təkcə sərinlik yox, həm də istilik verə bilir.

Başqa dillərdən alınmış zəruri sözləri ilk dəfə qəzet səhifəsinə çıxararkən hökmən onların açımını vermək lazımdır. Həsən bəy Zərdabi "Əkinçi" qəzetində xeyli alınma söz işlədir və onların hər birinin nə olduğunu oxuculara anladırdı: "Məlumdur ki, indi olan Osmanlı davasında torped (torpedo – müəl.) çox iş görür. Torped bir su keçirməyən dəmir qutudur ki, onun içini barıt ilə doldurub dəryaya atırlar, onun üstə puçlara var ki, gəmi üzən zaman o puçlara dəyəndə torped atılıb gəmini para-para edir" («Əkinçi» qəzeti, 1877, 21 iyul 1877-ci il) .

***-Sonda Milli Mətbuat Günündə jurnalistlərimizə nə tövsiyə edərdiniz?***

- Milli mətbuatımızın tarixində öyrənilsi, ibrət götürülsi faktlar çoxdur. H.Zərdabinin, Ə.Hüseynzadənin, C.Məmmədquluzadənin əsərlərində dillə bağlı maraqlı fikirlər var. Bugünkü jurnalistlərimiz həmin fikirləri öyrənərək inkişaf etdirməlidirlər. Peşə bayramımız münasibəti ilə bütün həmkarlarımızı ürəkdən təbrik edir, hər birinə cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

*Müsahibəni hazırladı:*
*Nərminə Əsədova*

# BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin uğurları

***BDU-nun nəzdində "Gənc istedadlar" Liseyi 14 illik fəaliyyəti dövründə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na uyğun olaraq bilikli və innovativ düşüncəyə malik vətənpərvər gənclərin yetişdirilməsinə xidmət edir.***



Hazırda Liseydə 622 şagird təhsil alır. 2020/2021-ci tədris ilində "Sabahın alimləri" onuncu Respublika müsabiqəsində liseyin 21 şagirdi Kompüter elmləri, Kimya, Riyaziyyat, Fizika və Astronomiya, Biologiya, Ekologiya, ətraf mühitin idarə olunması kimi sahələr üzrə müxtəlif mövzularda layihələrlə çıxış etmiş və 3 layihə 1-ci yerə, 5 layihə 2-ci yerə, 3 layihə 3-cü yerə və 1 layihə isə xüsusi mükafata layiq görülmüşdür. 1-ci yerə layiq görülmüş 2 layihə ölkəmizi Amerika Birləşmiş Ştatlarında təşkil olunmuş Intel ISEF - Beynəlxalq Elm və Mühəndislik sərgisində təmsil etmişdir. Bu nəticələrlə Lisey Respublika üzrə ilk yerdə qərarlaşmışdır.

Liseyin şagirdləri müxtəlif ölkələrdə keçirilən bilik yarışmalarında layiqincə çıxış etmiş, Respublika və beynəlxalq olimpiadalarda 10 medal qazanmışlar ki, bunun da 2-i qızıl, 2-i gümüş, 6-i bürüncdür. Fizika, Kimya, Riyaziyyat və İnformatika fənləri üzrə keçirilən Beynəlxalq Meqapolislər olimpiadasında Liseyin 10-cu sinif şagirdi Nəriman Şirinli Kimya üzrə Bürünc medal qazanmışdır. O, PolyUp Azərbaycan müsabiqəsində 2-ci yer tutaraq beynəlxalq müsabiqəyə vəsiqə qazanmış və 55-ci Beynəlxalq Mendeleyev Kimya olimpiadasında Bürünc medala, 11-ci sinif şagirdi Xanlar Abbasov isə Con Fon Neyman adına Macarıstan Beynəlxalq riyaziyyat olimpiadasında həvəsləndirici mükafata layiq görülmüşdür.

Respublika Fənn olimpiadasında Liseyin 10-cu sinif şagirdləri Nəriman Şirinli Kimya üzrə və Rəfsan Həbubullayev Fizika üzrə Qızıl medal, 11-ci sinif şagirdi Xanlar Abbasov və 6-cı sinif şagirdi Süleyman Abdulla isə İnformatika üzrə Bürünc medal qazanıblar.

Lütfüzadə adına Məntiq olimpiadasında 5-ci sinif şagirdləri Cahangir Zeynallı və Əli Nəsirli Gümüş medal, Fəridə Cəfərova və Turqut Hüseynli isə Bürünc medala layiq görülüblər.

Ölkəmizi Avropa Fizika olimpiadasinda (EuPhO-2021) təmsil edən Liseyin 10-cu sinif şagirdi Rəfsan Həbubullayev həvəsləndirici mükafata layiq görülüb.

Təhsil ocağının uğurları burada BDU tərəfindən yaradılmış şəraitlə və liseydə tədrisin müasir tələblərə uyğun səviyyədə qurulması və müəllimlərin tədrisdə müasir təlim texnologiyalarından istifadə etmələri ilə bağlıdır. Bu il liseyi bitirən 50 şagirddən 9-u qızıl və 2-si gümüş medalla, 7-si isə liseyi fərqlənmə attestatı ilə bitirib.

# BDU-nun əlaçı məzunu: Burada oxumaq hər zaman mənim üçün qürurdur







***Ökənin ali təhsilinin flaqmanı olan Bakı Dövlət Universitetini bu il 5963 tələbə bitirib. BDU-nun onların təhsil həyatındakı rolu və gələcək akademik və peşə fəaliyyətlərinə təsiri barədə 2020-2021-ci tədris ilini yüksək müvəffəqiyyətlə başa vuran magistr məzunlarla söhbət etdik. Magistrlər tələbəlik xatirələri və Universitetin onların həyatında necə iz qoyduğu haqqında öz təəssüratlarını bizimlə bölüşdü.***

***Kimya fakültəsinin məzunu Murad Bünyadzadə:*** "2015-ci ildə Bakı Dövlət Universitetinin Kimya fakültəsinə qəbul olunmuşam. Kimya ixtisası üzrə ingilis dilində təhsil almışam. BDU-nun 100 illik yubileyinə təsadüf edən 2019-cu ildə həmin ixtisası 96.97 bal ortalaması ilə bitirmişəm. Bakalavr səviyyəsini bitirdikdən sonra da təhsilimi doğma BDU-da davam etdirmək istədim. Elə həmin il BDU-nun Kimya fakültəsinin Neft kimyası və kimya texnologiyası kafedrasında ingilis sektoru üzrə Neft kimyası ixtisasına magistrant kimi qəbul olundum və bu il ortalama 99.97 balla məzun oldum. Universitetdə ümumilikdə 6 illik təhsilim boyunca qazandığım bütün uğurlara görə daima mənə inanan və dəstək olan ailəmə və professor-müəllim heyətinə borcluyam. Onların mənə olan inam və ümidləri mənə daha da irəli getmək üçün stimul verib. İndi geriyə baxanda görürəm ki, təhsilim üçün BDU-nu və Kimya fakültəsini seçməklə çox düzgün qərar vermişəm. BDU-da ingilis dilində təhsil imkanları bizə həm də beynəlxalq aləmdə iş imkanlarına müraciət şəraiti yaradıb. Universitetdəki akademik mühit məni karyeramı akademik yöndə də inkişaf etdirməyə sövq etdi. Peşə ixtisasının praktiki tərəfini tətbiq etməklə bərabər akademik karyeramı da məhz BDU-da davam etdirmək istəyirəm. Mükəmməl təhsilim və uğurlu gələcəyim üçün BDU-ya minnətdarlığımı bildirirəm."

***Filologiya fakültəsinin məzunu Elnurə Pirəliyeva:*** "Azərbaycanın ilk və ən prestijli universitetində təhsil almaq bir çox abituriyentin arzusudur. Mən də abituriyent olarkən BDU-nun tələbəsi olmağı arzu edirdim. BDU-nun bakalavr və magistr pillələrində təhsil aldım. BDU tələbəsi olmaq həm çox şərəfli, həm də çox məsuliyyətlidir. Bu məsuliyyət hissi sadəcə tələbə olarkən deyil, məzun olduqdan sonra da davam edir. Çünki çalışırıq ki, Universitetin bizə verdiyi təhsilə, dəyərlərə sahib çıxaq və onlardan öz xalqımıza fayda verəcək bir şəkildə istifadə edək. BDU-nun tələbəsi olmağın ən gözəl tərəflərindən biri də ikinci bir ailəyə sahib olmaqdır. Müəllimlərin tələbələrə səmimi münasibəti, onları öz övladı kimi sevməsi və dəyər verməsi, biz tələbələrin BDU kollektivini öz ailəmiz kimi görməsinə səbəb olur. BDU-nun məzunu olmağımla fəxr edirəm."

***Mexanika-riyaziyyat fakültəsinin məzunu Günay Məhərrəmova:*** "Ulu öndər Heydər Əliyevin ali təhsil aldığı universitetdə təhsil almaq mənim üçün çox qürurvericidir. Təhsil aldığım müddətdə mən nəinki təhsil, eyni zamanda gələcək həyatımda özümü reallaşdırmaq üçün əhəmiyyətli təcrübə qazanmışam. BDU-da dərs deyən müəllimlərdən, eyni zamanda elmi rəhbərim professor Ziyatxan müəllimdən riyaziyyat elminin dərinliklərini öyrəndiyimə görə özümü şanslı hesab edirəm. Gələcəyə aid bütün planlarım BDU ilə bağlıdır. Doğma, əziz universitetimdən ayrılmaq məni kövrəldir, amma deyə bilərəm ki, bu ayrılıq qısa müddətlikdir. Gələcəkdə elmi fəaliyyətimi BDU-da davam etdirmək, xalqıma və universitetimə faydalı olmaq istəyirəm."

***Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin məzunu Turana Tağıyeva:*** "Abituriyentlik dövründən siyasi proseslərə və beynəlxalq münasibətlərə olan marağım məni bu ixtisasa yönəltdi. Hansı universitetdə təhsil alacağım barədə düşünərkən, mənim üçün ən perspektivli seçimin Bakı Dövlət Universiteti olduğu qərarına gəldim. Bakalavr təhsilimdən sonra magistr təhsilimi də mənim üçün doğma məkana çevrilən bu ali təhsil ocağında davam etdirdim. Seçimimdən peşman olmadım, bu 6 il mənə çox dəyərli insanlar, yeni möhkəm dostluqlar və artıq dostlarıma çevrilən müəllimlər, yeni biliklər qazandırdı. İxtisas biliyini tam mənimsəməmdə Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin professor-müəllim heyətinin mühüm rolu olub. Beynəlxalq təcrübəyə yiyələnmək üçün xaricdə təhsillə bağlı müəyyən planlarım olsa da, gələcəkdə ölkəmizin inkişafına təkan verəcək kadrların formalaşmasına öz kiçik də olsa töhfəmi vermək istədiyimdən akademik fəaliyyətimi BDU-da davam etdirməyi düşünürəm."

***Tarix fakültəsinin məzunu Nigar Abdulzadə:*** "Hələ orta məktəbdə oxuyarkən dərsliklərimin ilk səhifələrinə BDU yazdığımı xatırlayıram. Hansı ixtisasa yiyələnmək istədiyimə tam qərar verməmişdim, lakin o ixtisasa harada yiyələnəcəyim mənim üçün hələ o yaşlarımdan müəyyən idi. Mən qarşıma qoyduğum hədəfim üçün çox çalışıb, 2015-ci ildə Tarix fakültəsinə qəbul olundum və fərqlənmə diplomu alaraq bakalavr təhsilimi uğurla başa vurdum. Məzun olduğum il magistraturaya qəbul olunaraq, ali təhsilimi yenə BDU-da davam etdirmək qərarına gəldim və budur, fakültə birincisi olaraq bu dəfə də uğur əldə etdim. Tələbəlik ömrün ən unudulmaz illərindəndir. Mən BDU-da təhsil aldığım hər gün bu duyğunu qəlbdən hiss etdim. Qapısından içəri keçdiyim hər gün daşına-divarına ilk günkü kimi heyrətlə və fəxrlə baxdığım yer oldu. Mən bu əzəmətli məkanda dəyərli müəllimlər tanıdım, onlardan öyrəndim, gələcəkdə onlar kimi olmağı özümə hədəf seçdim. Beləliklə, BDU mənim biliyimin, dünyagörüşümün, bir şəxsiyyət kimi mənəvi keyfiyyətlərimin daha da zənginləşməsi üçün əvəzedilməz yerə çevrildi. Əgər məndən bu gün xoşbəxt tələbəliyin sirrini soruşsalar, heç düşünmədən belə cavablaram: "Sevərək seçdiyiniz ixtisasda və təhsil ocağında təhsil alın! Çünki bu, həyatın elə bir mərhələsidir ki, hər nə qədər çətinliklə üzləşsəniz də, öz seçimlərinizdən güc alıb, mübarizə apardığınız müddətdə sizi heç nə yora, peşman edə bilməz. Əksinə, bu yolda çəkilən hər əziyyət sizin üçün daha xoş olar". Fəxr edirəm, çünki əldə etdiyim hər uğurumda daim BDU-nu hörmətlə, gülümsəyərək və səmimi qəlbdən gələn sonsuz minnətdarlıq hissi ilə yad edəcəyəm. Təşəkkür edirəm, BDU, mənə insanın öz seçimlərindən daha dəyərli heç nə olmadığını bir daha sübut etdiyin üçün!"

*İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi*

# BDU tələbələri "PAŞA Bank"ın kodlaşdırma üzrə təlim sessiyalarında iştirak edəcəklər

***Mexanika-riyaziyyat və Tətbiqi riyaziyyat və kibernetika fakültələrinin tələbələri "PAŞA Bank"ın kodlaşdırma üzrə təlim sessiyalarında iştirak edəcəklər.*** Ümumi 17 sessiyadan ibarət olan təlimlər 15 iyul 2021-ci il tarixindən etibarən həftədə iki dəfə olmaqla saat 12:00-da Microsoft Teams üzərindən həyata keçiriləcək. Hər sessiyadan sonra Telegram kanalı vasitəsi ilə tələbələrə ev tapşırığı və linklər göndəriləcəkdir. Təlim Bankın Rəqəmsal Mühəndislik komandasının üzvləri tərəfindən keçiriləcək. Sessiyalar zamanı peşəkarlar tərəfindən "Java SE", "Spring Boot", "Gradle", "SQL", "Liquibase", "Mikroservis Arxitekturası" və digər texnologiyalar üzrə təlimlər keçiriləcək. Proqramın ümumi 16 sessiyadan ibarət olacağı nəzərdə tutulub. Təlim sessiyalarının sonunda tələbələr xüsusi platforma üzərindən imtahan verəcək və imtahanı uğurla keçən tələbələr bankdaxili "Mentorship" proqramına qoşulmaq və gələcəkdə "PAŞA Bank"da təcrübə keçmək şansı qazanacaqlar.

Qeyd edək ki, təlimlər "PAŞA Bank" ilə BDU arasında əməkdaşlığa dair imzalanan memorandum çərçivəsində həyata keçirilir. Memoranduma əsasən informasiya texnologiyalarının, innovasiyaların tətbiqi, təhsil və bank sahələrində innovasiya fəaliyyətinin birgə həyata keçirilməsi, müasir texnologiyaların və elmi inkişafın istifadəsi və inkişafında qarşılıqlı əlaqələndirmə, təhsil və bank xidmətləri sahəsində birgə seminar, treninq, konfrans və digər təhsil tədbirlərinin təşkili və həyata keçirilməsi nəzərdə tutulub.

# "BDU könüllüləri" cari tədris ilində bir çox layihələrdə fəal iştirak edib

***2019-cu ildə yaradılan "BDU könüllüləri" qrupu ilk gündən etibarən aktiv fəaliyyət göstərməyə davam edir.*** Universitetin ictimai həyatında fəal iştirak edən qrupun hazırda 500-dən çox üzvü var. Onlardan 46-sı hazırda Universitetin müvafiq şöbə və fakültələrində könüllü kimi çalışırlar. Könüllülər tədbirlərin təşkilində, müsabiqələrin keçirilməsində, mətbuat sahəsində uğurla iştirak edirlər.

Cari tədris ilində də "BDU könüllüləri" uğurlu fəaliyyətləri ilə seçildilər. Onlar 18 May - Beynəlxalq Muzeylər Günü ilə əlaqədar tələbələrin Universitetin muzeylərinə səfərlərini təşkil ediblər. Azərbaycan Könüllü Təşkilatları İttifaqının (AKTİ) sədri Tural Hümbətov, "ASAN Könüllüləri" Təşkilatının sədri Emiliya Bayramova, AKTİ sədr müavini və DOST Agentliyinin Könüllülərlə iş şöbəsinin müdiri Ruslan Mirzəliyevin iştirakı ilə "Uğurlu karyera könüllülükdən keçir" adlı silsilə onlayn tədbirlər keçiriblər. "Microsoft Teams" platforması üzərindən xaricdə könüllü olmaq, təcrübə proqramları, AİSEC haqqında seminarlar təşkil ediblər. "BDU könüllüləri" həmçinin BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin qəbul imtahanında və bir çox tədbirlərdə fəal iştirak edib.

# “Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik ruhunda tərbiyəsi təlim-tərbiyə işinin ən mühüm istiqamətlərindəndir”

***Bakı Dövlət Universitetində müharibədən əvvəl olduğu kimi, postmüharibə dövründə də bununla bağlı davamlı addımlar atılır.***

Ölkəmizdə gənc nəslin milli köklərimizə, mənəvi dəyərlərimizə, tarixdən gələn ənənələrimizə bağlılıq, Vətənə sevgi, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması istiqamətində müxtəlif sahələrdə davamlı addımlar atılır. Ümumiyyətlə, gənclərin vətənpərvərlik ruhunda yetişdirilməsi mühüm prinsiplərdən birini təşkil edir. Vətən müharibəsinin qələbəmizlə başa çatmasını təmin edən mühüm amillərdən biri gənclər arasında vətənpərvərlik ruhunun aşılanması ilə bağlı uğurlu işin aparılmasıdır. Ötən il sentyabrın 27-dən noyabrın 10-dək davam edən 44 günlük Vətən müharibəsi göstərdi ki, Azərbaycanda Vətənə, xalqa bağlı, torpaqlarımızın azad olunması uğrunda canlarından keçməyə hazır olan gənc nəsil formalaşıb. Bəlli olduğu kimi, müharibənin ilk günlərindən on minlərlə gənc Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin ərazi şöbələrinə müraciət edərək ordu sıralarına yazılmaq istədiyini bildirdi. Gənclərimiz döyüş meydanında göstərdikləri şücaətləri ilə Prezident, Ali Baş Komandan İlham Əliyevin etimadını layiqincə doğrultmağa, üzərlərinə düşən missiyanı şərəflə yerinə yetirməyə qadir olduqlarını təsdiqlədilər. Lakin bu, bizə arxayınlaşmaq üçün əsas vermir. Yəni müharibədən əvvəl olduğu kimi, postmüharibə dövründə də gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik ruhunda tərbiyə edilməsi istiqamətində işlər davam etdirilməlidir. Təbii ki, bu istiqamətdə bir çox qurumların, o cümlədən ali məktəblərin üzərinə böyük məsuliyyət düşür.

Bu məqamda qeyd edək ki, ölkəmizin aparıcı ali təhsil müəssisələrindən olan Bakı Dövlət Universiteti də sözügedən istiqamətdə müvafiq addımlar atır. ***BDU-nun İctimaiyyətlə əlaqələr və informasiya şöbəsinin müdiri Günel İsgəndər (Orucəliyeva) “Yeni Azərbaycan”a açıqlamasında öncə onu bildirib ki, 44 günlük Vətən müharibəsində həm ön, həm də arxa cəbhədə böyük şücaət və rəşadətlə mübarizə aparanlar sırasında Bakı Dövlət Universitetinin tələbə və məzunları da var idi.*** Onun sözlərinə görə, BDU-nun tələbə və məzunlarından 18 nəfəri şəhidlik zirvəsinə ucalıb. Universitetin foyesində onlar üçün xatirə guşəsi yaradılıb. Müsahibimiz bildirib ki, hər bir cəmiyyətin gələcəyi onun yetişməkdə olan gənc nəslidir: “Gənc nəslə qayğı isə Azərbaycan dövlətinin siyasətinin aparıcı istiqamətlərindən biridir. Bugünkü tələbə-gənclər nə qədər savadlı, nə qədər vətənpərvər, nə qədər yüksək dünyagörüşünə malik olarsa, dövlətin, millətin gələcəyi bir o qədər işıqlı və ümidverici olar. Bu mənada, universitetlər gələcəyimizin bünövrəsinin möhkəmlənməsinə xidmət edən bir qurumdur, bir ocaqdır. Bu məqsədlə universitetimizdə də bir sıra addımlar atılır”.



Bildirilib ki, universitet rəhbərliyinin qərarına əsasən, şəhidlərin xatirəsinin uca tutulması, veteran tələbə və məzunlara diqqət və qayğı göstərilməsi, qazi tələbələrin təhsil problemlərinin öyrənilməsi və həlli istiqamətində müvafiq dəstəyin göstərilməsi, məzunların fakültələrdə tələbələrlə görüşlərinin keçirilməsi və s. nəzərdə tutan Tədbirlər Planı işlənib hazırlanıb. “Vətən müharibəsi iştirakçısı olmuş alt qruplarda təhsil alan BDU tələbələrinin ödənişlərinin Universitetin büdcəsindən ödənilməsi haqqında qərar qəbul edildi. Universitetin professor-müəllim heyətinin Vətən müharibəsi günlərində dövri mətbuatda haqq savaşımızla bağlı, ümumilikdə, 100-dən çox, tələbələrin isə 50-yə yaxın məqaləsi dərc olundu”, - deyə Günel İsgəndər bildirib.

Onun sözlərinə görə, bəhs edilən müddətdə BDU-da “Hardan başlanır Vətən - ordumuzun uğurları”, “Biz zəfər çalacağıq, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”, “Azərbaycan Ordusu Cəbrayıl, Füzüli, Qubadlı, Zəngilan şəhərlərini işğaldan azad etdi”, “Dünyaya ağlımızı, gücümüzü göstəririk - Zəngilandan olan professor”, “Salam Azərbaycan əsgəri!”, “Həsrət uzandıqca vüsal daha şirin olur”, “Milli birlik və siyasi həmrəylik - Qələbəyə aparan yol”, “Qarabağın azadlığı üçün tarixi şərait yaranıb” “Qarabağa doğru”, “Əsgər anası olmaq”, “Milli siyasi iradədən hərbi qüdrətə doğru”, “Ali Baş Komandana və ordumuza güvənirik”, “Zəfər gətirən həmrəylik”, “Xarıbülbülün yarı Şuşa”, “30 illik həsrətin sonu” və s. sərlövhəli məqalələr, “44 gün” adlı sənədli film, Milli Qəhrəman general Polad Həşimovun əziz xatirəsinə “General Polad” kompozisiyası təqdim olunub.

Bundan başqa, BDU-nun tələbə gəncləri, xüsusilə də sosial şəbəkələrdə aparılan informasiya müharibəsində, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması işində yüksək fəallıq nümayiş etdiriblər.

Fikirlərinə davam edən Günel İsgəndər deyib: “Eyni zamanda, şəhid və qazilərin tələbə gənclər arasında tanıdılması, onların qəhrəmanlıqlarının təbliği istiqamətində tədbirlər həyata keçirilir. Belə ki, BDU TV və Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə şəhid tələbə və məzunlardan olan Cavid Manafov, Nicat Əhmədov, Şamil Nəcəfov, Manaf Bəhmənli, Ceyhun Şalıyev, Vüqar Məmmədov, Ataməli Musaoğlu haqqında reportajlar hazırlanıb. Reportajlarda onların həyat yolu və keçdikləri şərəfli döyüş yolu barəsində həm valideynlərinin, həm də universitet kollektivinin fikirləri öz əksini tapıb. Layihə çərçivəsində digər şəhid tələbə və məzunların xatirəsinə həsr olunmuş reportajlar hələ də hazırlanmaqdadır. Layihənin məqsədi universitetin şəhidlik zirvəsinə ucalmış tələbə və məzunlarının xatirəsini yaşatmaq, onların şərəfli döyüş yolunu yaddaşlara əbədi həkk etməkdir”.

Bundan başqa, BDU könüllüləri, TGT və Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşəbbüsü ilə mütəmadi olaraq şəhid tələbə və məzunların ailələri ilə əlaqə saxlanılır, onlara diqqət və qayğı göstərilir. Mütəmadi olaraq fakültələrdə qazilərimizlə görüşlər keçirilir. Günel İsgəndər bildirib: “Tərtib edilən Tədbirlər Planına uyğun olaraq Vətən müharibəsində şəhidlik zirvəsinə yüksəlmiş tələbə və məzunların xatirəsinin yaşadılması və onların keçdiyi qəhrəmanlıq yolunun gənclər arasında təşviq edilməsi məqsədilə il ərzində xatirə kitabının hazırlanması nəzərdə tutulub. Kitabda qəhrəman şəhidlərimiz haqqında müəllimlərinin və tələbə yoldaşlarının fikirləri öz əksini tapacaq. Layihə Universitetin müvafiq struktur bölmələrinin, fakültələrin, Tələbə Gənclər Təşkilatı və Tələbə Həmkarlar İttifaqı Komitəsinin fəal üzvlərinin iştirakı ilə həyata keçiriləcək. Həyata keçirilən kompleks tədbirlər içərisində BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşəbbüsü ilə tələbələrin məqalələrindən ibarət “Qarabağ Azərbaycandır” adlı kitabı yaxın müddətdə işıq üzü görəcək. Kitabda tələbələr Vətən müharibəsində qazandığımız tarixi qələbəni və vətənpərvər gənclərimizin şücaətini əks etdirən məqalələrlə çıxış ediblər”.

Günel İsgəndər deyib ki, bütün bunlar həm şəhidlərin xatirəsini yaşatmaq və qazilərə qayğı göstərmək, həm də postmüharibə dövründə gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması işinə dəstək vermək məqsədi daşıyır. BDU olaraq bu vəzifənin öhdəsindən layiqincə gəlirik və gələcəkdə də bu istiqamətdə işləri davam etdirəcəyik.

*Müşfiqə BAYRAMLI*

*yeniazerbaycan.com*
*13 iyul 2021-ci il*

# BDU-nun Web of Science Core Collection bazasında indekslənən daha bir elmi jurnalı dünyanın ən nüfuzlu jurnalları siyahısına daxil oldu

Clarivate Analitics Beynəlxalq İnformasiya Agentliyinin bu günlərdə açıqlanan hesabatına əsasən Bakı Dövlət Universitetinin “Science Citation Index Expanded” (SCIE) bazasında indekslənən “TWMS Journal Pure and Applied Mathematics” jurnalı 1.892 impakt faktorla (təsir göstəricisi) “Riyaziyyat” kateqoriyasında 330 beynəlxalq nəşr arasında 43-cü yerdə Q1 kvartil kateqoriyalı və “Tətbiqi riyaziyyat” kateqoriyasında 265 beynəlxalq nəşr arasında 84-cü yerdə qərarlaşaraq Q2 kvartil kateqoriyalı jurnallar siyahısına daxil olmuşdur.

2010-cu ildən başlayaraq ingilis dilində nəşr olunan jurnalda nəzəri və tətbiqi riyaziyyatın müxtəlif sahələri üzrə elmi məqalələr dərc edilir. Nəşrin redaksiya heyətinə 20-dən çox ölkənin tanınmış alimləri daxildir. Jurnal 50-dən çox ölkənin universitet və elmi mərkəzlərində yayımlanır. Qeyd edək ki, jurnalda dərc olunan məqalələr “MatReviews”, “Zentrablatt” və “VINITI” kimi bazalarda arxivlənir.

# BDU aqrar sahədə ətraf mühitin mühafizəsi üzrə kadrlar hazırlayacaq

***Bakı Dövlət Universitetində magistratura səviyyəsində yeni ixtisas - aqrar sahədə ətraf mühitin mühafizəsi ixtisaslaşması açılıb. İxtisaslaşmanın məqsədi ərzaq təhlükəsizliyi baxımından dayanıqlı kənd təsərrüfatının inkişafı və əhalinin ekoloji təmiz kənd təsərrüfatı məhsulları ilə təmin edilməsi, aqrar sahənin inkişafı zamanı mühitqoruyucu və resursqoruyucu texnologiyaların tətbiqidir.***

Ekologiya, biologiya, coğrafiya, torpaqşünaslıq və aqrokimya ixtisaslarında təhsil alan tələbələr “Aqrar sahədə ətraf mühitin mühafizəsi” ixtisaslaşması üzrə magistraturada təhsillərini davam etdirə bilərlər. Aqrar sahədə ətraf mühitin mühafizəsi ixtisaslaşması üzrə təhsilalanlara dayanıqlı kənd təsərrüfatı və kənd ərazilərinin inkişafı, aqrolandşaftların mühafizəsi və ekoloji modelləşdirilməsi, kənd ərazilərinin kimyalaşdırılmasının ekoloji problemləri, aqroekoloji rayonlaşdırma, aqrar hüququ, kənd təsərrüfatının coğrafi informasiya sistemi (AgroGİS), orqanik kənd təsərrüfatının əsasları və ağıllı kənd təsərrüfatı kimi sahələr üzrə biliklər veriləcəkdir.

# Nizami Gəncəvi ideyaları dünyada sülh və humanizmə xidmət edir

*Məlum olduğu kimi, bu il mayın 20-də Prezident İlham Əliyevin iştirakı ilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin “Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri” adlı videoformatda müzakirələri keçirilib. Mən bu nüfuzlu tədbirin materialları ilə böyük maraqla tanış oldum və bir ziyalı və vətənpərvər insan kimi burada aparılan müzakirələrdən son dərəcə məmnun qaldım.*



Qeyd etmək lazımdır ki, möhtərəm Prezidentimiz İlham Əliyevin tədbirdəki parlaq, dərin məzmunlu çıxışı burada müzakirələrin dərin və maraqlı məcrada davam etdirilməsinə şərait yaratdı. Dövlətimizin başçısı, ilk növbədə qeyd etdi ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi fəaliyyət göstərdiyi səkkiz il ərzində dünyada aparıcı beynəlxalq təsisatlardan birinə çevrilmişdir.

Bəli, mərkəz öz məqsədyönlü və geniş fəaliyyəti ilə dünyada sülh, əməkdaşlıq, təhlükəsizlik və sabitlik işinə xidmət edir. Qurumun üzvləri ölkələrinə, yaxud beynəlxalq təşkilatlara uzun illər rəhbərlik etmiş məşhur dünya siyasətçiləridir. Onların təcrübələri, həqiqətən unikaldır. Belə zəngin təcrübənin bir araya toplanması dünyada nadir hadisədir.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin budəfəki müzakirəyə çıxardığı mövzu son dərəcə aktualdır. Təsadüfi deyildir ki, Azərbaycan Prezidenti mövzunun əhəmiyyəti barədə belə dedi: “Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri” mövzusunda müzakirəni yüksək dəyərləndirirəm, çünki bizim məhz buna ehtiyacımız var. Demək olar ki, 30 il çəkən işğal faktı səbəbindən, Azərbaycan öz mövqeyini birmənalı şəkildə bəyan etdi ki, biz ərazilər azad olunmayana qədər Ermənistanla əməkdaşlıq etməyəcəyik. Hesab edirəm, Ermənistanın özü də başa düşür ki, onlar çox böyük səhvə yol veriblər”.

Tədbirdə çıxış edən natiqlər Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətini yüksək dəyərləndirərək, müzakirə olunan mövzu ilə bağlı dəyərli fikir və mülahizələr səsləndirdilər. Onlar əmindirlər ki, mərkəz bundan sonra da dahi mütəfəkkir Nizaminin irsini və Azərbaycanın zəngin mədəniyyətini dünyaya çatdırmağa çalışacaq, bununla da regionda və bütün dünyada sülhə və ədalətin bərqərar olunmasına töhfə verəcək.

Azərbaycan gələcəyə baxan dövlətdir. Prezident İlham Əliyev tədbirdə bu fikri xüsusi dedi: “Biz indi gələcəyə baxmalıyıq. 30 illik işğala, azad olunmuş ərazilərdə genişmiqyaslı dağıntılara və onların məhv edilməsinə baxmayaraq, Azərbaycan gələcəyə nəzər salmağa, vahid inteqrasiya edilmiş Cənubi Qafqaz regionunun bir hissəsi olaraq öz gələcəyini planlaşdırmağa hazırdır”.

Bəli, öz daxili və xarici siyasətində sivil, demokratik, bəşəri və multikultural dəyərlərə üstünlük verən Azərbaycan dövləti Prezident İlham Əliyevin müdrik liderliyilə dünyanın ən nüfuzlu və güclü dövlətlərindən birinə çevrilmişdir.

**Leyla GƏRAYZADƏ,**
*filologiya elmləri doktoru, professor*

*“Xalq qəzeti”, 13 iyul 2021-ci il*

# BDU-nun əlaçı məzunları danışır

***Bakı Dövlət Universitetinin builki əlaçı bakalavr məzunları öz uğurlarının səbəbləri, məqsədlərinə çatmaq üçün gördükləri fəaliyyət barədə danışıblar. Bu tələbələr 4 illik təhsil illərini müvəffəqiyyətlə başa vurdular.***




## BDU-nun fərqlənən məzunu: *“Uğura gedən yol təkcə çox oxumaqdan keçmir, tələbə gərək aktiv fəaliyyət göstərib təcrübə əldə etsin”*

***Biologiya fakültəsinin məzunu Cavahir Hacıbabazadə:*** “Bu il Bakı Dövlət Universitetinin Biologiya fakültəsinin bakalavr səviyyəsinin ingilis bölməsini fərqlənmə ilə bitirmişəm. Ümumi orta müvəffəqiyyət göstəricim (ÜOMG) 98.73 bal oldu. Oxuduğum bu 4 il ərzində fakültədə ümumi orta müvəffəqiyyət göstəricisinə görə həmişə birinci olmuşam. Ailəm və müəllimlərim məni həmişə dəstəkləyiblər. Bunun üçün onlara çox minnətdaram.

Təhsil illərimin ilk günlərindən bəri bütün fənlərin ən xırda detallarına qədər mənimsəyirdim. Çünki gördüyüm işləri yüksək səviyyədə yerinə yetirmək mənim əsas prinsipimdir. Ona görə də mühazirələrə həvəslə qulaq asır, müəllimlərimin fikirlərini qeyd edirdim. Bakı Dövlət Universitetinin müəllimlərinin hər biri həm də öz sahəsində görkəmli mütəxəssislərdir. İmtahanlarımı yüksək nəticələrlə başa vurmağımın əsas səbəblərindən biri mühazirələrlə kifayətlənməyib əlavə mənbələri də araşdırıb istifadə etməyimdir. Təhsildə göstərdiyim nailiyyətlərə görə Karlov Universitetində təşkil olunan iki həftəlik təcrübə proqramında iştirak etmişəm. Təcrübə zamanı Çexiyanın bir çox tədqiqat institutlarında böyük təcrübə topladım. Bundan sonra öyrəndiyim elmlər mənə daha maraqlı gəldi. 3-cü kursda oxuyanda təcrübəni Azərbaycan Milli Elmlər Akademiyasının Genetik Ehtiyatlar İnstitutunda keçdim. Həmin təlimi uğurla başa vurdum. Əldə etdiyim təcrübələr mənə yeni ideyalar qazandırdı, lakin pandemiya ilə əlaqədar olaraq hələ ki, yerinə yetirə bilmirəm.

Buna baxmayaraq, mən öz müəllimlərimin rəhbərliyi ilə elmi fəaliyyətlə məşğul olmağa davam etdim. COVID-19 infeksiyası ilə mübarizəyə həsr olunmuş konfransda iştirak edərək öz tezislərimi təqdim etdim. Bununla bərabər müəllimlərimlə birlikdə 2 tezisin müəllifi oldum. Hal-hazırda həm yerli, həm də xarici alimlərlə əməkdaşlıq edirəm.

Öz üzərimdə daim işləyir, biliyimi zənginləşdirib yaxın gələcəkdə təhsilimi davam etdirmək istəyirəm. Bütün gənclərimizə məsləhət görürəm ki, arzuları uğrunda mübarizə aparsınlar. Bakı Dövlət Universitetində təhsil aldığım müddətdə şəxsən əmin oldum ki, bizim elm ocağımız, alimlərimiz və təhsilimiz bəzi xarici ölkələrdən də irəlidədir. Biologiya ən vacib və fundamental elmlərdən biridir. Gələcəyimiz elmin inkişafından asılıdır.

Sonda Bakı Dövlət Universitetinə, Biologiya fakültəsinin rəhbərliyinə, mənə dərs deyən dəyərli müəllimlərimə və ailəmə minnətdarlığımı bildirirəm.”

***Fizika fakültəsinin məzunu Nigar Əhmədova:*** “2017-ci ildə Bakı Dövlət Universitetinin Fizika fakültəsinin ingilis bölməsinə daxil olmuşam. Uşaq yaşlarımdan astronomiya elminə çox böyük həvəsim olub və 8-ci sinifdən fizika sahəsini dərindən öyrənməyi qarşıma məqsəd qoymuşam. İndi isə Universitetdəki dörd ilim haqqında qısa danışmaq istəyirəm.

Birinci tədris ilim mənim üçün çox çətin idi. İlk növbədə, fənlərin ingilis dilində olmağı çətinlik yaradırdı (terminləri, elmi cümlələri anlamaq asan deyildi). İkinci çətinliyim isə mühitlə bağlı idi. Universitet mühiti məktəb mühitindən inanılmaz dərəcədə fərqli idi. Daha sonra öz üzərimdə çalışmağım və Universitetə adaptasiya olmağım bütün problemləri aradan qaldırdı. 4 illik tədris ilimi fərqlənmə ilə başa vurdum. Bakı Dövlət Universiteti məni ixtisaslı kadr kimi yetişdirmişdir. Ailəmə və Universitetin professor-müəllim heyətinə dərin minnətdarlığımı bildirirəm.”

***Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin məzunu Orxan İsmayılov:*** “2017-ci ildə 604 balla Bakı Dövlət Universitetinin dünya iqtisadiyyatı ixtisasına (tədris ingilis dilində) qəbul olunmuşam. Dünyada baş verən proseslər və onların bir-biri ilə əlaqələri mənim hər zaman diqqətimi cəlb edib. Eyni zamanda müxtəlif şirkət və təşkilatların bu prosesdə hansı rol oynadıqlarını dərindən mənimsəmək istəmişəm. Ona görə ixtisas seçimim Bakı Dövlət Universiteti Beynəlxalq münasitbətlər və iqtisadiyyat fakültəsi olub.

Tələbələrə məsləhətim odur ki, İT, siyasət, coğrafiya, riyaziyyat və s. sahələr barədə dərindən məlumat əldə etsinlər. Həmçinin, uğur qazanmaq üçün tələbənin fəaliyyəti ancaq universitet auditoriyası ilə yekunlaşmamalıdır. Tələbə aktiv sosial həyat sürməlidir. Mən təcrübə proqramlarında, hətta Milli BMT Modeli Konfransı MilliMUN-da iştirak etmişəm. Həm işləmişəm, həm də boş vaxtlarımda dillərə marağım olduğuna görə tələbəlik zamanı ingilis, yapon və koreya dillərini də öyrənmişəm. Əlbəttə, dörd il hər şeyə nail olmaq üçün çox az bir müddətdir və mən daha da təkmilləşmək arzusu ilə yaşayıram. Müxtəlif konfranslar, müsabiqələr, görüşlər və s. tələbənin müxtəlif bacarıq və təcrübə əldə etməsinə böyük töhfə olur. Bir də deyərdim ki, professor-müəllim heyətinin dəstəyinə arxalansınlar. Onlar bizim köməyimizə çatmağa və bizlərə yol göstərməyə həmişə hazırdırlar. Bizim fakültənin dekan müavinin dediyi kimi, fakültə rəhbərliyi və müəllim heyəti öncə bizim üçün ailə, sonra müəllim olmağa çalışırlar.”

**Ekologiya və torpaqşünaslıq fakültəsinin məzunu Ramiz Qulamov:** “Mən 2017-ci ildə Bakı Dövlət Universitetinin Ekologiya və torpaqşünaslıq fakültəsinin ekologiya ixtisasına qəbul olunmuşam. Uşaqlıqdan təbiət, onun inkişafı, təkamül, flora və faunanın xüsusiyyətləri ilə maraqlanmışam. Böyüdükcə mən dünyadakı iqlim dəyişikliyi, flora və faunanın, su ehtiyatlarının məsuliyyətsiz şəkildə məhv edilməsini narahatlıqda izləmişəm. Universitetə qəbul olunandan əvvəl də fakültəmizin istedadlı və xeyirxah müəllimləri haqqında çox gözəl fikirlər eşitmişdim. Məhz buna görə də Bakı Dövlət Universitetinin Ekologiya və torpaqşünaslıq fakültəsinə sənədlərimi verdim. Müəllimlərimizin bizə təqdim etdiyi materiallar, onların geniş və hərtərəfli təqdimatı və çox çalışmağım sayəsində təhsilimi yüksək nəticə ilə başa vurdum. Buna görə Bakı Dövlət Universitetindəki bütün müəllimlərinə minnətdarlığımı bildirirəm.”

***Jurnalistika fakültəsinin məzunu Pəri Abbaslı:*** “Məni Jurnalistika fakültəsinə gətirən 12 yaşımdan məndə olan jurnalistika həvəsi və arzusu idi. 4 il ərzində müəllimlərimdən maksimum çox şey öyrənmək, özümü yalnız praktikaya yox, həm də nəzəriyyəyə uyğunlaşdırmaq istəyirdim. Eyni zamanda gələcək qayğısı məni narahat edirdi, çünki iki xarici universitetə sənəd vermək istəyirdim. İmtahanlarıma var gücümlə hazırlaşmağımın əsas səbəblərindən biri də bu idi.

Tələbə yoldaşlarıma demək istəyirəm ki, dərslərin ağırlığı səbəbindən gəncliklərini stress və gərginlik altında keçirməsinlər. Həm yaxşı tələbə olub, həm də əyləncəli gənclik keçirməyin yolu mütləq ki var. Əsas odur ki, o yolu tapsınlar. Hazırda Facemark.az saytında jurnalist, redaktor vəzifəsində çalışıram. Tələbə olduğum dövr ərzində "3-cü mərtəbə", "Xod ver" radioverilişlərinin və "Atəşçalan Prometey" podkastının aparıcısı, "MUZA" elektron incəsənət jurnalının layihə meneceri, "3-cü küçə" bloqunun yazıçısı kimi fəaliyyət göstərmişəm. Jurnalistika fakültəsində oxuyan və oxuyacaq tələbələrə məsləhətim budur ki, nəzəriyyə ilə kifayətlənməsinlər, özlərini daim inkişaf etdirsinlər.”

*Biz də Bakı Dövlət Universitetinin fəxri olan məzunlarını uğurları münasibəti ilə təbrik edir, bundan sonrakı fəaliyyətlərində daha böyük müvəffəqiyyətlər əldə etmələrini arzu edirik.*

***İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi***

# “Nazirlikdə qala bilərdim, amma təhsili seçdim” - Azərbaycanın ən gənc məzunu ilə müsahibə

***Azərbaycan tarixinin ən gənc bakalavriat və magistratura məzunlarından biri Turana Tağıyeva BDU-nu 18 yaşında bakalavriat, 20 yaşında isə magistratura pilləsi üzrə fərqlənmə diplomu ilə bitirib.***

***Bu il ölkəmizin ali təhsil müəssisələrindən bakalavriat və magistratura səviyyələri üzrə yüksək ortalamaya sahib bir çox istedadlı gənc məzun oldu.***

Bu gənclər arasında xüsusi diqqəti cəlb edən isə Azərbaycan tarixinin ən gənc bakalavriat və magistratura məzunlarından biri Turana Tağıyevadır. O, BDU-nu 18 yaşında bakalavriat, 20 yaşında isə magistratura pilləsi üzrə fərqlənmə diplomu ilə bitirib. *AzEdu.az bu istedadlı gənc məzunla olan müsahibəni təqdim edir.*

Əvvəlcə onu tanıyaq...

Mən, Tağıyeva Turana Mahmud qızı, 4 yaşında məktəbə, 14 yaşında Bakı Dövlət Universitetinin Beynəlxalq Münasibətlər fakültəsinə, 18 yaşında isə BDU-nun Beynəlxalq Münasibətlər və Diplomatiya ixtisası üzrə tədrisi ingilis dilində magistratura pilləsinə qəbul olunmuşam. Hazırda LANDAU School-da Marketinq və PR departamentinin mütəxəssisi olaraq çalışıram.

***-Cəmi 14 yaşınızda məktəbdən məzun olub BDU-ya qəbul olmusunuz. Maraqlıdır, belə gənc yaşda ali təhsilə qədəm qoymağın sizin üçün nə kimi çətinlik və üstünlükləri oldu? Tələbə yoldaşlarınız, eləcə də müəllimlər necə münasibət göstərdilər?***

-Çətinliklə və ya hansısa bir üstünlüklə qarşılaşdığımı deyə bilmərəm, çünki məktəbdə oxuyarkən də, bakalavr və magistr pillələrində təhsil alarkən də hər bir şagird, tələbə kimi dərsimə hazırlaşıb, yeni biliklər əldə etmək üçün çalışmışam. Məndən böyük sinif, qrup və ya iş yoldaşlarımla aramda heç vaxt fərq hiss olunmayıb və yaşımı bildikdə çox təəccübləniblər. Bununla bağlı xüsusi yanaşma, digər şagird və ya tələbələr ilə müqayisədə üstünlük görməmişəm.

***-Bakalavriatura səviyyəsini fərqlənmə diplomu ilə bitirmisiniz. Bir az bu müddət haqqında danışardınız. Dərslərə hazırlıq prosesiniz necə olub?***



-Bakalavriaturada aldığım 4 illik təhsilin şəxsiyyət kimi formalaşmama, hadisələrə olan yanaşmama təsiri danılmazdır. Bu illər ərzində ixtisasımın peşəkarı olmaq üçün yalnız universitetdə əldə etdiyim təhsil ilə kifayətlənməyib, öz üzərimdə çalışmışam. Fərqlənmə diplomunu əldə etmək üçün fövqəltəbii gücə malik olmaq gərək deyil, təhsil aldığınız ixtisası bəxtə-bəxt yox, sevərək və dərk edərək seçib, verilən material ilə kifayətlənməyib hər zaman əlavə, hadisələrin fərqli baxış bucağından nəql edildiyi yeni məlumat əldə etmək, onu düzgün analiz edib tətbiq etmək yetərlidir. Bu müddətdə Gilan Holdingin maliyyə departamentində təcrübə keçmişəm, dostlarımın qurduğu “OnePlate” startap layihəsində Sosial Media Marketinqi üzrə mütəxəssis kimi çalışmışam, layihənin ərsəyə gəlməsində zəruri olan dataların yığımı, emalı və daxil edilməsi prosesində iştirak etmişəm.

***-Ən gənc magistr adını qazanmısız, bununla yanaşı magistratura səviyyəsini də fərqlənmə ilə bitirmisiniz. Magistraturaya hazırlıq prosesindən bir az danışardınız. Bu təhsil müddətində nə kimi uğur göstəriciləriniz olub?***

-Təhsilimi davam etdirmək qərarını elmi fəaliyyət ilə məşğul olmaq həvəsinə görə qəbul etdim. Təhsilin dünyanı dəyişə biləcək ən güclü alət olduğuna inanıram, çünki təhsilli insanlar həm əldə edilən məlumatı düzgün dəyərləndirə bilir, həm hüquq, azadlıq və vəzifələrini dərk edirlər. Zənnimcə, cəmiyyətin formalaşmasında və parlaq gələcəyə doğru addımlamasında təhsilin rolu böyükdür. Ölkəmizin inkişafına öz töhfələrini verəcək, gələcəyin uğur qazanmış fərdlərinin formalaşmasında kiçik də olsa bir rolumun olacağına inandığımdan XİN-də təcrübə keçərək, diplom işimi yazaraq, paralel olaraq magistraturaya qəbul imtahanlarına da həvəslə, yorulmadan hazırlaşırdım.

***-Həm bakalavriat, həm də magistraturada təhsil almaq üçün BDU-nu seçmisiniz. Niyə məhz BDU?***

-Beynəlxalq münasibətlər ixtisası üzrə təhsil alacağımı öncədən müəyyən etmişdim, bunu hansı ali təhsil müəssisəsində reallaşdıracağımdan isə əmin deyildim. Qəbul olduğum dövrdə, mənim üçün ən perspektivli seçimin Bakı Dövlət Universiteti olduğu qərarına gəlmişdim. Sonradan seçimimdən peşman olmadım, bu 6 il mənə çox dəyərli insanlar, yeni möhkəm dostluqlar və artıq dostlarıma çevrilən müəllimlər, yeni biliklər qazandırdı. Magistraturaya qəbul olunarkən də seçimim BDU oldu, çünki bura mənim üçün doğmadır, nə qədər yeniliklərə açıq olsam da, öyrəşdiyim mühitdən ayrılmaq istəmədim. Eyni zamanda, həqiqətən də işinin peşəkarı olan, dəyərli müəllimlərimə olan dərin sevgi və hörməti qeyd etməmək, yəqin ki, haqsızlıq olar.

***-Azərbaycan təhsili tarixinin ən gənc bakalavr və magistr məzunu, hər iki pillədə uğurlu təhsil yoluna sahib biri olaraq gələcək üçün nə kimi planlarınız var? Bu uğurların sirri nədir?***

-Planlarımdan danışmağın düzgün olduğunu düşünmürəm, çünki ən azından hər ilin sonunda “to do” siyahımda olan qeydlərə baxanda fikir və istəklərimin nə dərəcədə dəyişdiyini görürəm. Planlarım böyükdür, çoxdur, mən də onları həyata keçirmək üçün çox həvəsliyəm və dayanmadan çalışmağa davam edirəm. Özümün ən böyük tənqidçisi olduğumdan, əldə etdiyim nəticələr ilə kifayətlənmirəm, razı olmuram, buna görə də həqiqətən nəzərimdə olan böyük uğurları əldə etdikdə onların sirrini sizinlə paylaşmağa söz verirəm.

***-Bir müddət XİN-də çalışdığınızı bildirmisiniz. Gənc yaşda tələbə olaraq bu necə mümkün oldu? Necə fəaliyyət göstərdiniz və sizə nələri qazandırdığını düşünürsünüz?***

-IV kursa çatdıqda bütün tələbələr təcrübə üçün ixtisaslarına uyğun olaraq müəyyən müəssisələrə göndərilirlər. Məsələn, BDU-da bizim ixtisas üzrə tələbələr XİN, Milli Məclis, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Asan Xidmət və s. kimi qurumlara göndərilirlər. Mən XİN-də 1 aylıq təcrübə müddətinə başladım, lakin fəaliyyətimdən razı qalındığı üçün müddət 6 aya qədər uzadıldı. Sonradan qalaraq davam etmək imkanı olsa da, magistratura təhsilimə başladım və fokusu təhsilə yönləndirdim. XİN-də birlikdə çalışdığım bütün əməkdaşlardan, ümumi orda çalışdığım müddətdə hər kəsdən dəyəri ölçülməyən məlumatlar, məsləhətlər aldım, universitet həyatı boyunca yiyələndiyim nəzəri bilikləri praktikada tətbiq etmək imkanım oldu. Sonradan isə marağımı cəlb edən və ixtisasımla haradasa oxşar yönləri olan digər sahədə özümü sınamağa qərar verdim. Hazırda işimdən məmnunam və seçimimdən peşman deyiləm.

***-Son olaraq həm abituriyentlərə, həm də əvvəlki iki səviyyə üzrə təhsil alan tələbələrə tədris müddətində uğur qazanmaq üçün nə kimi tövsiyələriniz olar?***

-Dediklərimi dost məsləhəti olaraq qəbul edəcəklərinə ümid edirəm. Hər bir insanın özünütəhsil mədəniyyətinə yiyələnməsini uğur qazanmaq üçün zəruri olan amillərdən sayıram. Təhsil alarkən sadəcə qiymət xətrinə 3 vərəqlik mühazirədən kəsintiləri oxumaqla kifayətlənmək olmaz. Əslində müəllimin rolu düzgün yönləndirməkdir, qalan addımlar isə tərəfinizdən atılmalıdır. 3 vərəqlik material ilə baş vermiş hadisəni yalnız 1 mənbədən bəlkə də qərəzli şəkildə qəbul etdiyiniz məlumat əsasında dəyərləndirirsiniz, lakin fərqli mənbələrdən, ədəbiyyatlardan qəbul edilən məlumatlar həm hadisəni dərindən hərtərəfli öyrənməyinizə, həm də obyektiv yanaşmanıza köməklik göstərir. Ən əsası analitik düşünmə qabiliyyətini mükəmməlləşdirməkdir. Abituriyentlərin ixtisaslarını sevərək, anlayaraq seçəcəklərinə ümid edirəm, çünki özümdən də bilirəm ki, bir insan qarşısına məqsəd qoyduqda hansı çətinliklə üzləşsə də onun öhdəsindən gəlmək üçün əlindən gələni edəcək. İxtisasdan, təhsil aldığınız bölmədən və ya universitetdən fərqi olmadan seçdiyiniz yolda ən yaxşısı olmağa çalışın, çünki sevərək və düzgün görülən hər bir iş, zənnimcə, ən prestijli, aktual və tələb olunandır. Hər kəsə uğurlar!

*İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi*

# BDU-nun əməkdaşı Harvard Universitetinin təşkil etdiyi kurslarda iştirak edib

***Biologiya fakültəsinin Molekulyar biologiya və biotexnologiyalar kafedrasının böyük laborantı Nurlan Əmrahov 2021-ci il 12 aprel - 25 iyun tarixlərində Harvard Universitetinin təşkil etdiyi "Biokimya" və "Genetika" fənləri üzrə ixtisasartırma kurslarında iştirak edib.***

Kurslarda müasir dövrdə gen analizlərinin aparılması metodlarının nəzəri bilikləri, seleksiya və gen modifikasiyasının həyata keçirilməsində önəmli informasiya və müasir biokimyəvi analizlərin aparılmasının nəzəri bilikləri əldə olunub.

Genetika ixtisası üzrə tədris prosesində eukariot (insan, heyvan və bitki) və prokariot (bakteriyalar) hüceyrələr səviyyəsində gen və genom, xromosom abberasiyalar, Mendel qanunları əsasında irsiyyətin təşkili və ortaya çıxan genetik problemlər, populyasiya genetikası, genom sekvensinqi,


HARVARD MEDICAL SCHOOL
Office of Online Learning, External Education
*acknowledges that*
Nurlan Amrahov
*has earned the*
HMX Fundamentals—Biochemistry
*Certificate of Achievement*
David H. Roberts, M.D.
Dean for External Education
Associate Professor of Medicine
Harvard Medical School
Michael J. Parker, M.D.
Associate Dean for Online Learning
Faculty Director of HMX
Assistant Professor of Medicine
Harvard Medical School
June 25, 2021

abiotik və biotik streslərə qarşı davamlılığın müəyyən edilməsi, ümumi və xüsusi əlamətlər üzrə biliklər öyrədilib. Biokimya üzrə təlimlərdə isə eukariot, prokariot orqanizmlərdə və viruslarda biokimyəvi proseslərin təşkili, hüceyrə və toxuma səviyyəsində siqnal prosesləri, energetik (termodinamik) proseslərin hüceyrələr və orqanoidlər səviyyəsində öyrənilməsi, hüceyrələr arasında biokimyəvi mexanizmlər əsasında əks-əlaqənin qurulması tədris edilib.

Tədris prosesi Harvard Universitetinin tədqiqatçıları - Cristine De Gennaro, Robert Green, Carrie Blond, Kevin Bonham və Ole-Petter Hamvik tərəfindən aparılıb.

Kursun yekun imtahanında Nurlan Əmrahov yüksək nəticə göstərərək "Achievement certificate" (Nəaliyyət sertifikatı)-na layiq görülüb.

# BDU-nun məzunları danışır

***Bu il Bakı Dövlət Universitetindən 5463 tələbə və magistrant məzun olur. "BDU məzunu" adını qazanan tələbələrdən bir neçəsinin təəssüratlarını öyrəndik. Gənc mütəxəssislər doğma BDU-da əldə etdikləri biliklərdən, Universitetlə bağlı xatirələrindən bəhs ediblər.***



***Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin məzunu Nərmin Babayeva:*** "Azərbaycanın ən böyük universitetində təhsil almağa başlamaq və ən əsası təhsilini ingilis dilində almaq məni çox həyəcanlandırmışdı. Əvvəllər tələbəsi olmaq arzusu ilə önündən baxa-baxa keçdiyin Universitetə qəbul olunmaq, burada təhsil almaq, həqiqətən, gözəl hissdir...

İllər həqiqətən tez keçdi, artıq doğma universitetinin məzunu kimi bu sözləri demək insanı gələcək məsuliyyətə hazırlayır. İlk dəfə birinci kursda imtahandan kəsiləndə keçirdiyim hissləri indi də xatırlayıram. Növbəti kurslarda həvəslə oxuyaraq zərbəçi, əlaçı olmağın sevincini izah edə bilmərəm. Yuxusuz gecələri, imtahan təlaşının, mehriban müəllimləri, qrup yoldaşlarımı, Universitetin mənə qazandırdığı dəyərli insanları, öyrəndiyim məsləhətləri, elmi, savadı ömür boyu unutmayacam. Nə yaxşı ki, Bakı Dövlət Universitetinin tələbəsi və artıq məzunuyam."

***Ekologiya və torpaqşünaslıq fakültəsinin məzunu Gültac Nağızadə:*** "14 ixtisas seçimi olmasına baxmayaraq sadəcə 1 seçim haqqımdan istifadə edib Bakı Dövlət Universitetini yazmışdım və qəbul oldum. İlk olaraq sevincimin həddi-hüdudu yox idi. Amma bu sevinclə yanaşı həyəcanlanmışdım. Necə olacaqdı, necə oxuyacaqdım tam fərqli imtahan sistemi məni həyəcanlandırırdı.



Bəlkə də bu ali məktəb olmasaydı, mən indi tamamilə başqa, heç həvəsli olmadığım bir sahəni seçmişdim… Amma indi hər qarışını, hər otağını əzbər bildiyim, hər dərsində hər müəllimlə bir xatirə qazandığım, mənə həyatdakı çətinlikləri necə dəf edəcəyimi öyrədən Universitetdən məzun oluram. İlk gündən tələbələrin sosial həyatını rəngarəng edən tələbə təşkilatlarına qoşulmuşdum. Debat klubu, Tələbə Gənclər Təşkilatı, Tələbə Elmi Cəmiyyətində xeyli yeni dostlarlarla tanış oldum. Universitetdə insanlığı ilə seçilən o qədər gözəl müəllimlər, dostlar tanıdım. Universitetimiz mənə çətinliklərin öhdəsindən gəlməyi, problemləri həll etməyi və ən əsası özünə güvənməyi, xəyalların mütləq ardı ilə getməyi öyrətdi. Bütün öyrəndiklərimə və qazandıqlarıma görə Bakı Dövlət Universitetinə təşəkkür edirəm."

***Fizika fakültəsinin məzunu Rəfiqə İsmayıllı:*** "Tələbə olmağa hazırlaşanda mənə güclü təhsil verəcək bir universitetdə oxumaq ən böyük arzum idi. Dörd illik təhsil həyatım necə də gözəl və tez keçdi. Bu illərin belə tez keçəcəyini heç düşünməzdim. Pandemiyanın başlaması məni çox kədərləndirdi, çox sevdiyimiz universitetdən ayrı qaldıq. Müəllimlərin sayəsində



tədrisimiz onlayn formada davam etdi və onlayn dərslər də maraqlı anlar ilə yadda qaldı.

Mən bunun üçün Bakı Dövlət Universitetinin professor-müəllim heyətinə öz minnətdarlığımı bildirirəm. Nə yaxşı ki, flaqman universitetdə təhsil almışam, belə tələbələri və müəllimlərimi tanımışam. Mən Bakı Dövlət Universitetini seçməklə arzularımı burada gerçəkləşdirdim. BDU məni özümə kəşf etdirdi və daxilimdəki potensialın şəxsi inkişafıma sərf olunması üçün münbit şərait yaratdı. Savadlı və qayğıkeş Universitet kollektivi hədəflərimizə çatmaqda əvəzsiz rol oynadılar."

# BDU-da Zəfər ovqatlı Məzun günü

***Yaşı bir əsri adlayan qocaman Bakı Dövlət Universitetinin bir parçası olmaq nə qədər qürurvericidirsə, bu auditoriyalarda, dəhlizlərdə dolaşarkən qədəmlərimiz dəyən yerlərdə vaxtilə elə universitetimiz qədər nəhəng alimlərin, görkəmli şəxsiyyətlərin addımladığını düşünmək də bir o qədər fəxarət hissi yaşadır.***

Bakı Dövlət Universiteti keşməkeşli tariximizin alınmaz qalasıdır, Azərbaycanın dözümlülük simvoludur. Necə ki, xalqımızın milli heysiyyətini, azadlıq arzusunu heç bir qüvvə məhv edə bilmədi, eynilə Bakı Dövlət Universiteti də ziddiyyətli dövrün girdabından çıxmağı bacardı, şübhəsiz, 102 yaşlı universitetimiz bu gün də gələcəyin görkəmli şəxsiyyətlərini yetişdirir. Yəqin ki, onillər sonra gələcək nəsillər həmin isimlərlə fəxr edəcək.

Ötən günlərin birində universitetdən zəng gəldi: "Builki Məzun günündə aparıcı ola bilərsənmi?" Sözün düzü, tərəddüd içində idim. Baxmayaraq ki, ilk deyildi, yenə də ağır məsuliyyəti dərk edirdim. Tərəddüdümü bir anlıq kənara qoyub ürəklə "bəli" dedim. Uzun müddətdir ki, pandemiya səbəbindən, doğma universitetimizdən uzaq düşmüşdük. Ona görə də, fasilədən sonra təhsil ocağımıza qayıtmaq sevindirici idi. Məndən başqa üç aparıcı da çıxış edəcəkdi. Texniki işçilərdən tutmuş rektoratlığa qədər hamı Məzun gününə xüsusi dinamika ilə hazırlaşırdı, ən xırda detallara belə xüsusi diqqət yetirilirdi.

O möhtəşəm gün gəlib çatmışdı. 2021-ci il iyunun 29-da Bakı Dövlət Universitetində yaddaşlara yazılacaq Məzun günü keçirildi. Bu, həm də ona görə




əlamətdar idi ki, koronavirus səbəbindən bəzi məhdudiyyətlər mövcud idi, həmin məhdudiyyətlərə baxmayaraq, əskiksiz tədbir ərsəyə gətirmək heç də asan deyildi.

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin orkestrının ifasında Dövlət Himni sədaları altında üçrəngli Bayrağımız, eləcə də Bakı Dövlət Universitetinin bayrağı səmaya ucaldıldı. Bu anı həyəcansız yaşamaq mümkün deyildi. Hər birimizin üzündə təbəssüm pöhrələnmişdi. 102 illik universitet tarixinin belə əlamətdar gününün proqramında hansısa missiyanı yerinə yetirmək bu pöhrələrin səbəbkarı idi.

*İlk çıxış üçün söz Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevə verildi.* Elçin müəllim öz arzuları ilə məzunları gələcəyə qanadlandırdı. Elçin Babayev rektor təyin olunan gündən etibarən tələbələrlə olduqca səmimi davranır, onların qayğısına qalır, mütəmadi qayğıları ilə maraqlanır. Məhz rektor kimi onu tələbə kontingentinə sevdirən də elə bu amildir. Tədbir boyu "hər şey əladır, narahat olmayın" sözlərini ifadə edən baxışları ilə çıxışçılara və xüsusən, aparıcılara ürək-dirək verirdi.

*Tədbir boyunca Azərbaycan Respublikası təhsil nazirinin birinci müavini Firudin Qurbanov, Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənov, millət vəkili, akademik Nizami Cəfərov, millət vəkili Elnur Allahverdiyev bir-birindən maraqlı fikirlər söyləyərək builki məzunlara təbriklərini ünvanladılar. Bakı Dövlət Universitetinin gənc müəllimi, geoloq Ələkbər Mirzəyev uğurlu həyat üçün lazımi amillər barədə məzunlara tövsiyələr verdi.*

Bakı Dövlət Universitetinin Mədəniyyət-yaradıcılıq mərkəzi tədbirə xüsusi rəng qatdı. Mərkəzin rəqs və xor kollektivi, musiqi ansamblı, təşkil edilən lotoreya oyunu tamaşaçılar tərəfindən olduqca maraqla qarşılandı. Xüsusən, ansamblın solisti Rəqsanə Əsədovanın ifasında səslənən




"Qarabağ şikəstəsi" əksər insanları kövrək notlara köklənmişdi. Qarabağın adı keçən bu şikəstə uzun illərdən sonra ilk dəfə idi ki, Bakı Dövlət Universitetinin səhnəsində bu cür qürurla səslənirdi. Çünki bu Məzun günü parlaq Zəfərimizdən sonra Bakı Dövlət Universitetində keçirilən ilk təntənəli tədbir idi. "Qarabağ şikəstəsi" ifa olunanda insanların üzündəki qürur dolu kövrəkliyi sezmək mümkün olurdu. "Qarabağ şikəstəsi" bu dəfə Bakı Dövlət Universitetinin səhnəsində bir başqa tərzdə tüğyan edirdi...

Məzun günündə universitetimizin şəhid tələbələri də yad edildi. Lalə Hüseynzadənin qum kompozisiyasını hər kəs həssaslıqla izlədi. Kompozisiyada məzun papağını göyə atan tələbə təsvir olunur. Ani olaraq papaq silahla, məzun geyimi isə hərbi geyimlə əvəz olunur. Keçən il məzun olunmuş 18 tələbə II Qarabağ savaşında qəhrəmanlıqla şəhid oldu. Eyni zamanda, qazi məzunlar da xüsusi şövqlə təqdim edildi. Sözün hər iki mənasında, günümüzün qəhrəmanları məhz onlar idilər. Bakı Dövlət Universitetinin Zəfər ruhlu təntənəsi onların şücaətinin nəticəsi idi.

Tədbirin musiqili qonaqları öz ifaları ilə daha şən əhval-ruhiyyə yaratdılar. Azərbaycanın Xalq artisti Gülyanaq Məmmədova, Əməkdar artistlər - Samir Cəfərov, Nuriyyə Hüseynova, müğənnilər - Çilənay Hüseynova, Arzu Məmmədova bayram ab-havasını daha da pozitiv notlara köklədilər. Bakı Dövlət Universitetində hər zaman müxtəlif istedad sahibləri cəmləşib. Onlar universitetin mədəni həyatında aktiv iştirak ediblər. Universitetimizin tələbələri Səbinə Cəfərova və Fəxriyyə Kazımova da öz ifaları ilə məzunları təbrik etdilər.

Bakalavriat və magistratura pillələri üzrə ən yüksək Ümumi Orta Müvəffəqiyyət Göstəricisi ilə məzun olan tələbələrə müxtəlif hədiyyələr təqdim edildi. Sonda Bakı Dövlət Universitetinin himni səsləndirildi. Ənənəvi olaraq, göyərçinlər uçuruldu, şarlar havaya buraxıldı və papaqatma mərasimi baş tutdu.

Məzunların sevinci yerə-göyə sığmırdı. Tədbirdən sonra kimi şəkil çəkdirirdi, kimi rəqs edirdi, kimi kövrək anlar yaşayırdı... Bakı Dövlət Universitetində bundan da gözəl neçə-neçə təntənəli tədbir təşkil olunacaq, minlərlə məzun bu sevinci yaşayacaq. Hər şeyə görə minnətdarıq, əsrin universiteti!

***Nadir Yalçın***
*BDU-nun Filologiya fakültəsinin tələbəsi*

*1 iyul 2021-ci il*
*525.az*

# BDU-nun nəzdində İqtisadiyyat və Humanitar Kollecdə "Məzun Günü" keçirilib

***İyulun 9-da Bakı Dövlət Universitetinin nəzdində İqtisadiyyat və Humanitar Kollecdə "Məzun Günü" qeyd olunub.***

Azərbaycan Respublikasının Dövlət Himni ilə başlayan tədbirdə əvvəlcə torpaqlarımızın azadlığı uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

*Tədbirdə giriş nitqi ilə çıxış edən Kollecin direktoru Səhər Orucova Kollecdə təhsilin inkişafı üçün həyata keçirilən tədbirlərdən, qazanılan uğurlardan danışıb.* Məzunların bacarıqlı bir mütəxəssis kimi ölkəmizin tərəqqisində, cəmiyyətin inkişafında mühüm rol oynayacaqlarına, fəaliyyətlərində vətənpərvərlik və dövlətçilik prinsiplərini əsas tutacaqlarına əminliyini bildirib.

*BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev məzunlara BDU-nun rektoru Elçin Babayevin təbriklərini çatdırıb.* Çıxışında ölkəmizdə təhsilə göstərilən dövlət qayğısından bəhs edib, məzunlara tövsiyələrini verib. Kollecdə həyata keçirilən yenilikləri yüksək qiymətləndirib. Prorektor əlamətdar gün münasibətilə məzunları təbrik edib və onlara gələcək fəaliyyətlərində nailiyyətlər arzulayıb.



*Valideynlər adından Kamandar Əsgərli, məzunlar adından Nigar Əliyeva çıxış edərək Kollecin rəhbərliyinə və müəllimlərə minnətdarlıqlarını bildiriblər.* Direktor Səhər Orucova Kolleci yüksək balla bitirən tələbələrə qırmızı diplomları təqdim edib.

Tədbir bədii hissə ilə davam edib. Bədii hissədə Kollecin tələbələri musiqi nömrələri ilə çıxış ediblər. BDU-nun Filologiya fakültəsinin məzunu, şair Cəmil Cəmilbəyli Bəxtiyar Vahabzadənin "Mənim dostlarım" şeirini səsləndirib. Azərbaycanın məşhur tarzəni Qurban Primovun nəticəsi Asim Primov tarda "Tələbə" mahnısını ifa edib. Şuşa rayon Mədəniyyət evinin "Buta" rəqs qrupunun ifasında "Arşın mal alan" rəqsi nümayiş olunub.

Kollecin ictimai həyatında fərqlənən tələbələrə "İlin tələbəsi" nominasiyası üzrə fəxri fərmanlar təqdim edilib.

Tədbirin sonunda məzun Fəridə Həsənova Kollecin simvolik açarını birinci kurs tələbəsi Həcər Əliyevaya təqdim edib.

# BDU-nun əməkdaşları Təhsil Nazirliyinin təşkil etdiyi "Əcnəbilərin cəlbinin təşviqi" təlimlərində iştirak edib

***İyulun 14-də Bakı Dövlət Universitetinin Xarici tələbələrlə iş şöbəsinin əməkdaşları Leyla Əbilova və Əli-Əşrəf Rəcəbli Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə Xəzər Universitetində "Əcnəbilərin cəlbinin təşviqi" mövzusunda keçirilən təlimlərdə iştirak ediblər.*** Təlimlər Azərbaycanda ali təhsil müəssisələrinin saytı, marketinq, reytinqlər, təhsil sərgiləri və portalları üzrə əsas istiqamətləri əhatə edib.

Təlimlərdə internet üzərindən işin təkmilləşdirilməsi, ali təhsil müəssisələrinin əcnəbilər üçün məlumat mənbəyi olan internet səhifələrinin tərtibi metodologiyası haqqında biliklərin dərinləşdirilməsi, Fəaliyyət Planının və hesabat formalarının, təqdimatlarının hazırlamaq bacarıqlarının təkmilləşdirilməsi sahəsində biliklər əldə olunub.

# Tələbə Nəzarət Qrupunun üzvləri imtahan sessiyasından danışır

***Bakı Dövlət Universitetində keçirilən 2020/2021-ci tədris ilinin yaz semestrinin yay imtahan sessiyası artıq öz işini yekunlaşdırıb. İmtahan prosesi şifahi qaydada onlayn formada keçirilib. İmtahanlara nəzarət rektor, prorektorlar, dekanlar, dekan müavinləri və Tələbə Nəzarət Qrupunun üzvləri tərəfindən aparılıb.***

BDU-da tələbələri onlayn tədris prosesində fəal iştiraka yönəltmək, imtahan sessiyasında təhsilalanların nəzarətinin həyata keçirilməsi, həmçinin tələbə təkliflərinin müzakirəsi məqsədilə fəaliyyət göstərən Tələbə Nəzarət Qrupuna Universitetin tələbə təşkilatlarının - Tələbə Həmkarlar İttifaqı Komitəsi, Tələbə Gənclər Təşkilat, Tələbə Elmi Cəmiyyəti və BDU Könüllülər qrupunun nümayəndələri daxildir. BDU-da imtahan sesiyasının yekunu, tələbələrin imtahanlar haqqında təəssüratları, qiymətləndirmə prosesi və s. haqqında öz münasibətlərini, fikir və mülahizələrini bildirmək məqsədilə Tələbə Nəzarət Qrupunun üzvü olan tələbələrimizlə söhbət etdik. Qrup üzvləri qeyd ediblər ki, tələbələrin biliyinin qiymətləndirilməsi prosesində onların iştirakının təmin edilməsi, Universitet rəhbərliyi tərəfindən onlara göstərilən etimadın nəticəsidir.




***Fizika fakültəsinin IV kurs tələbəsi Sevinc Qənbərova:*** "Yaranmış pandemiya şəraitindən asılı olaraq onlayn formada keçirilən 3-cü imtahan sessiyasıdır. Tələbə Nəzarət Qrupunun (TNQ) üzvü olaraq iştirak etdiyim imtahan sessiyası uğurla başa çatdı. Universitet rəhbərliyinin pandemiya şəraitini nəzərə alaraq qəbul etdiyi tələbəyönümlü qərarlar tələbələrə olan diqqətin göstəricisidir. Pandemiya şəraitində keçirilən distant təhsilin təkmilləşdirilməsi və kompleks tədbirlər tələbələrin ixtisas biliyini mənimsəməsinə şərait yaradıb. Müşahidələrimə əsaslanaraq imtahan sessiyasının obyektiv və şəffaf formada keçirildiyini əminliklə deyə bilərəm."

***Hüquq fakültəsinin IV kurs tələbəsi Firavan Əlizadə:*** "Bildiyimiz kimi, artıq üçüncü imtahan sessiyasıdır ki, distant formada təşkil olunur. Universitet rəhbərliyi tərəfindən qəbul edilən qərarlar, problemə verilən çevik reaksiyalar tələbələrin narahatlığını aradan qaldırır. Sessiya imtahanlarını TNQ-nin üzvü olaraq mən də müşahidə etmişəm. Rəhbərliyin və professor-müəllim heyətinin daim tələbələrə dəstəyi tələbələrdə ruh yüksəkliyi yaratdı və imtahanların uğurla yekunlaşmasına səbəb oldu. Pandemiya dövründə imtahanların yüksək səviyyədə təşkil olunması, imtahanlarla bağlı edilən müvafiq güzəştlər tələbələrin imtahanları uğurla verməsi üçün zəmin yaratdı."

***Sosial elmlər və psixologiya fakültəsinin III kurs tələbəsi Nərmin Heydərova:*** "Tələbə Nəzarət Qrupunun üzvü olaraq bu semestrdə imtahanlarda iştirak etdim. İmtahan sessiyası zamanı heç bir çətinliyin olmaması üçün Universitet rəhbərliyi tərəfindən tələbəyönümlü qərarlar qəbul edilmişdi. Qəbul edilən tələbəyönümlü qərarlar tələbələrdə imtahan prosesində ruh yüksəkliyi yaratmışdır. Tələbə Nəzarət Qrupunun üzvü olaraq iştirak etdiyim imtahanların şəffaf keçdiyini əminliklə söyləyə bilərəm."

***Sosial elmlər və psixologiya fakültəsinin IV kurs tələbəsi Cəfər Gözəlov:*** "Artıq 2-ci tədris ilidir ki, pandemiya ilə əlaqədar olaraq universitetimizdə təhsil distant şəkildə davam edir. Tələbə Nəzarət Qrupu olaraq bu tədris ilində də fəaliyyətimizi davam etdirdik. İmtahan sessiyasından öncə universitetimizdə keçirilən Elmi Şuranın qərarı yenə tələbələrin xeyrinə oldu. Qoşulduğum imtahanlarda, tələbə və müəllim heyəti müvafiq olaraq tədris və dinləmə ilə rahatlıqla imtahan prosesini davam etdirdilər. İmtahanların gedişinə həm də dekanlar və kafedra müdirləri də nəzarət edir, imtahanların obyektiv keçirilməsində, eləcə də tələbələrin biliyinin yoxlanılmasında iştirak etdilər. Tələbələrin sualları əhatəli cavablandırmaları, ümumi fənn haqqında bilikləri nəzərə almaqla imtahan nəticələri müəyyənləşdirildi."

**Fizika fakültəsinin IV kurs tələbəsi Aynurə Salmanlı:** "Bildiyimiz kimi BDU imtahan sessiyasını uğurla yekunlaşdırdı. Universitet rəhbərliyi və professor-müəllim heyəti daim tələbələrə qayğı ilə yanaşır və onlara köməklik göstərirlər. BDU Elmi Şurasının imtahan sessiyasının təşkili haqqında qərarı tələbələr tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılandı və yaradılmış şərait onlarda stimul yaratdı. İmtahanlarda Universitet rəhbərliyinin təşəbbüsü ilə yaradılmış Tələbə Nəzarət Qrupunun müşahidə etməsi üçün əlverişli şərait vardı. "Microsoft Teams" platforması üzərindən qeyd edilən cədvələ uyğun olaraq təyin edilmiş qrafik əsasında imtahanlarda müşahidə apardıq, gördüyümüz nəticə odur ki, imtahanlarda şəffaflıq maksimum dərəcədə qorundu."

***Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin IV kurs tələbəsi Mirməhəmməd Hüseynov:*** "Tələbə Nəzarət Qrupunun üzvü olduğum müddətdə, ən əsas da sonuncu imtahan sessiyasında müşahidə etdiklərim bir tələbə olaraq təcrübəmi artırdı, bu təcrübə əsasında həm imtahan sessiyasına kənardan baxış tədrisdə də keyfiyyət göstəricimizin yüksəlməsinə nail olmağa təkan verir. Sessiya müddətində müxtəlif qruplarda imtahan prosesini izlədik. Artıq həm tələbə, həm də universitetin müəllim kollektivi onlayn imtahan prosesinə uyğunlaşıb. İmtahanlarda nəzarət etdiyim qruplarda heç bir qayda pozuntusu olmadı, imtahanın şəffaf keçirilməsi üçün universitet rəhbərliyi tam şəkildə fəaliyyət planı təqdim etdi. Plan əsasında imtahan prosesində qəbul edilmiş qaydalara birmənalı olaraq əməl olundu. Tələbələrin verdiyi suallar, yaranmış problemlərin dərhal aradan qaldırılması üçün müvafiq sektor və şöbələr cəld reaksiya verirdi. İmtahan sessiyası bitdikdən dərhal sonra isə Tələbə Nəzarət Qrupunun üzvləri tələbələrlə ümumi görüş keçirdi.

*İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi*

# “İmtahanların uğurlu təşkil edilməsi məqsədilə bütün şərait yaradılıb”

## BDU-nun müəllimləri 2020/2021-ci tədris ilinin yekunları haqqında

***Bakı Dövlət Universitetində 2020/2021-ci tədris ilinin yaz semestrinin imtahan sessiyası uğurla davam edir. Universitet rəhbərliyinin, professor-müəllim heyətinin diqqət və qayğısı, eyni zamanda tələbələrin məsuliyyətli yanaşması nəticəsində imtahanlar yüksək səviyyədə təşkil olunur. Şifahi şəkildə davam edən imtahanlarda şəffaflıq tam təmin olunub. İmtahanlarda şəffaflığın təmin olunmasına rektorluq, dekanlar və kafedra müdirləri, eyni zamanda Tələbə Nəzarət Qrupunun üzvləri nəzarət edir.***

***Tədris ili və yay imtahan sessiyasının gedişi barədə Universitetimizin müəllimlərinin fikirlərini öyrəndik.***



***Coğrafiya fakültəsinin Xarici ölkələrin iqtisadi və siyasi coğrafiyası və turizm kafedrasının müəllimi Gülşən Sultanova:***

“Bakı Dövlət Universitetinin Coğrafiya fakültəsində də 2020/2021-ci tədris ilinin yaz semestrinin imtahan sessiyasında tələbələrin öz bilik və bacarıqlarını nümayiş etdirməsi üçün bütün şərait yaradılıb. Cari semestrdə tədris olunan fənlər üzrə imtahan sualları məzmun və əhatəlilik əsas götürülərək sadələşdirildi. İmtahanın gedişindən və qiymətləndirmə ilə tələbələrimiz tam razı qaldılar. Coğrafiya fakültəsində də yay imtahan sessiyası tələbələrin fəal iştirakı ilə onlayn şəkildə davam edir. Professor-müəllim heyəti tələbələrə humanist, qayğıkeş münasibət göstərir. İmtahanların uğurlu təşkil edilməsi məqsədilə bütün şərait yaradılıb və Microsoft Teams platformasının tədris prosesinin məsafədən idarə edilməsi üçün verdiyi bütün imkanlardan istifadə olunub. Sessiya müddətində imtahanların öncədən təyin olunmuş qaydalara uyğun təşkil olunması məqsədilə lazımı texniki tədbirlər yüksək səviyyədə təşkil edilib.

İmtahan nəticələrinə əsasən onu deyə bilərəm ki, tələbələrin sualları elmi şəkildə cavablandırmaları və yaxşı qiymətləndirilmələri distant təhsilin lazımi səviyyədə təşkil olunduğuna əsas verir. Mən imtahanda tələbələrin hazırlıq səviyyəsindən çox razı qaldım.

İmtahan sessiyasının gedişində tələbələrin onlayn tədris prosesində əldə etdikləri bilik və bacarıqların nümayişi üçün həm universitet rəhbərliyi, həm də fənn müəllimləri tərəfindən şəffaf imtahan mühitinin yaradılmasının müsbət amil olduğunu deyə bilərəm. İmtahan prosesində imtahan götürən müəllimlə birlikdə imtahana nəzarət edən kafedra müdiri də mövzular ətrafında müəyyən suallar verdi, bununla tələbənin bilik səviyyəsini bir daha nümayiş etdirməsinə şərait yaratdıq. Bakı Dövlət Universitetində gələcəkdə, zərurət yaranarsa, onlayn tədrisdə daha mütərəqqi metodlardan istifadə etməklə tədris prosesinin maksimum yerinə yetirilməsi, bilik və peşə vərdişlərinin tələbələrə daha müasir metodlarla çatdırılmasında böyük nailiyyətlərə imza atılacağını əminliklə deyə bilərəm.”



***Geologiya fakültəsinin Faydalı qazıntılar kafedrasının professoru Nazim İmamverdiyev:***

“İyunun 7-dən Geologiya fakültəsində 2020-2021-ci tədris ilinin yaz semestrinin yay imtahan sessiyası başlamış və uğurla davam edir. İmtahanların şəffaf və mövcud qaydalara uyğun təşkil olunması məqsədilə bütün texniki tədbirlər yüksək səviyyədə həyata keçirilib. Tələbələrin imtahana qədərki semestrdaxili fəaliyyətlərdə əldə etdikləri qiymətlərin imtahan zamanı nəzərə alınması onlarda böyük ruh yüksəkliyinə səbəb olub və buna görə minnətdarlıqlarını ifadə ediblər. Bundan başqa imtahan nəticələri ilə razılaşmayan tələbələrin nəticələrinə Apelyasiya Komissiyası tərəfindən də baxılır və müvafiq qərarlar verilir. Fakültədə keçirilən imtahanlara Universitet rəhbərliyi, dekanlıq və kafedra müdirləri tərəfindən nəzarət edilir. Ənənəvi təhsildə olduğu kimi, fakültənin müəllimləri çalışırlar ki, tədris olunan fənlərin əsas mahiyyəti tələbələr tərəfindən qavranılsın. Tələbələrə mühazirə mətnləri, ədəbiyyat, elektron materiallar semestr başlayan kimi Teams proqramı vasitəsilə çatdırılır. Əlavə suallar yarandığı halda seminar dərslərində müzakirə olunur və diskussiya şəklində sualların cavabları açıqlanır.”



***Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin Dünya iqtisadiyyatı kafedrasının dosenti Fərid Babayev:***

“Bildiyiniz kimi, Universitetdə Təhsil Nazirliyinin distant təhsillə əlaqədar qəbul etdiyi qaydalara əsalanaraq bütün texniki-təşkilati işlər yüksək səviyyədə başa çatdırılmışdır. BDU-da imtahan sessiyasının mövcud qaydalara uyğun təşkili, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığın və obyektivliyin təmin olunması istiqamətində bütün tədbirlər görülmüşdür. İmtahanların şəffaf və obyektiv keçirilməsi məqsədilə prorektorlar, fakültə dekanları, kafedra müdirləri qarşısında konkret vəzifələr qoyulmuşdur. Məlumdur ki, bu semestrdə də distant formada şifahi imtahanların keçirilməsinə qərar verilmişdir. İmtahanlarla əlaqədar yarana biləcək istənilən məsələ ilə bağlı müvafiq olaraq Qərargaha, "Qaynar xətt" və elektron poçt vasitəsilə göndərilən bütün müraciətlərə operativ qaydada baxılır.”



***Filologiya fakültəsinin Azərbaycan dilçiliyi kafedrasının müəllimi Səbinə Vəliyeva:***

“Məlum pandemiya şəraitindən asılı olaraq əksər ali təhsil müəssisələrində imtahan prosesi ənənəvi formadan fərqli olaraq, onlayn şəkildə həyata keçirilir. Pandemiyanın gətirdiyi narahatlıq təhsil verənlərlə yanaşı, təhsil alanlardan da yan keçməmişdir. Univeristet tərəfindən qəbul edilən qərarlar tələbəyönümlü olduğu üçün, Universitet rəhbərliyinin hər zaman tələbələrin yanında olmalarını, onların bütün qayğılarına diqqətlə yanaşması nəinki tələbələrdə, eyni zamanda da müəllimlərdə böyük ruh yüksəkliyi yaratmışdır. Bunun nəticəsində də imtahan sessiyası boyunca başda rektor olmaqla bütün professor-müəllim heyəti tələbələrə xüsusi qayğı ilə yanaşır, onların doğru istiqamətdə inkişaflarına səy göstərirlər. Pandemiya dövrünün çətinliklərinə baxmayaraq, müəllim və tələbələrin birgə səyləri ilə bu sessiya da müvəfəqiyyətlə yekunlaşacaq. İmtahan prosesinə Universitet rəhbərliyi, fakültə dekanları, kafedra müdirləri daim nəzarət edir, imtahanların gedişi ilə maraqlanırlar. Onlayn imtahan prosesi çətin olsa da, öyrədən və öyrənənlər üçün maraqlı təcrübədir. Onlayn təhsil və imtahan prosesi müasir dövrdə təhsilin davamlılığı üçün optimal həll kimi qiymətləndirilməlidir.”



***Jurnalistika fakültəsinin Multimedia və elektron kommunikasiya kafedrasının müəllimi Afaq Sadıqova:***

“Artıq üçüncü semestrdir ki, imtahanlar onlayn qaydada davam edir. Cari tədris ilinin yay imtahan sessiyası əvvəlki sessiyalardan tələbə aktivliyinə görə fərqlənir. Tələbələr onlayn dərs və imtahan qaydalarını mükəmməl mənimsəyiblər. İmtahanların təşkili və gedişi haqda heç bir qüsurla rastlaşmamışam. İmtahanlar əvvəlcədən tərtib olunmuş cədvələ uyğun olaraq təşkil olunur. Artıq deyə bilərik ki, onlayn dərslər və imtahanlar tələbə-gənclərin sosiallaşması, sərbəst fikir mübadiləsi aparması, daha çox virtual aləmə qoşulmasına müəyyən dərəcədə öz müsbət təsirini göstərir.”



***Mexanika-riyaziyyat fakültəsinin Cəbr və həndəsə kafedrasının müəllimi Səbuhi Abdullayev:***

“Qlobal problem olan pandemiyanın ilk dövründə tədris və imtahanların aparılmasında bir çox çətinliklər yarandı. Buna baxmayaraq, ali təhsil müəssisəsinin rəhbərliyi tələbələrin xeyrinə qərarlar verdi. Tədrisi aparan müəllim özü dərs dediyi qruplarda imtahan götürür və bu proses operativ formada yerinə yetirilir. Düşünürəm ki, əldə olunan təcrübə sayəsində bəzi fənlərdən əyani tədris zamanı da şifahi imtahanlar götürmək daha səmərəli ola bilər. Hazırda davam edən imtahan sessiyası əvvəldən təyin edilən qrafikə əsasən həyata keçirilir. İmtahan götürdüyüm qruplarda imtahana qoşulub cavab verən bütün tələbələrim müvəffəq qiymətlər alıb. Ümid edirik ki, növbəti tədris ilindən etibarən dərslərə Bakı Dövlət Universitetinin auditoriyalarına qayıdarıq.”

***İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi***

**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Allahverdi Məmmədli, Cahangir Məmmədli, Samir Mirzəyev

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin mətbəəsində çap olunmuşdur.

**Çapa imzalanıb:** 30.07.2021

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.